RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 268 (8291) ÇƏRŞƏNBƏ AXŞAMI, 3 dekabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# “Enerjinin İpək yolu” tam istifadəyə verildi

## Prezident İlham ƏLİYEV: “Bu layihələrin həyata keçirilməsi Türkiyə-Azərbaycan birgə siyasi iradəsinin məhsuludur”

**Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) Avropa sərhədinə çatdı. Bu, tarixi bir hadisədir. Çünki TANAP “Cənub qaz dəhlizi”nin önəmli və ən böyük seqmentidir. Bu, Azərbaycan və Türkiyə xalqlarına, eləcə də digər qonşu xalqlara fayda və tərəqqi gətirəcək mühüm bir layihədir.**

Bunlar noyabrın 30-da Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsində TANAP-ın Avropa ilə birləşən hissəsinin açılış mərasimində də vurğulandı. Xatırlandı ki, “Cənub qaz dəhlizi”nin onurğa sütunu adlandırılan TANAP-ın təməli 2015-ci il martın 17-də Türkiyənin Qars vilayətinin Selim rayonunda qoyulmuşdur. Həmin mərasimdə Azərbaycanın, Türkiyənin və Gürcüstanın dövlət başçıları iştirak etmişlər. Ancaq TANAP-ın gerçəkləşməsinə doğru gələn yol bu hadisədən xeyli əvvəl başlanmışdı. Belə ki, hələ 2012-ci ilin iyun ayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyənin o vaxt Baş Naziri, indi isə Prezidenti olan Rəcəb Tayyib Ərdoğan İstanbulda TANAP üzrə hökumətlərarası saziş imzalamışlar. Həmin vaxtdan da layihənin həyata keçirilməsi istiqamətində genişmiqyaslı işlərə start verilmişdir. Bu işlər uğurla davam etdirilmiş və keçən il iyun ayının 12-də TANAP istismara daxil olmuşdur.

TANAP möhkəm bünövrə üzərində inkişaf edən bir layihədir. Çünki bundan əvvəl müəllifi Ümummilli Lider Heydər Əliyev olan, üçüncü minilliyin nəhəng mühəndis qurğusu sayılan Bakı-Tbilisi-Ceyhan kəməri üç ölkənin ərazisindən keçərək Azərbaycan neftini Xəzərin sahilindəki Səngəçal terminalından Türkiyəyə - Aralıq dənizinin sahilinə çatdırmışdır. Daha sonra Bakı-Tbilisi-Ərzurum kəməri istifadəyə verilmiş və bu kəmərlə daşınan “Şahdəniz” qazı Azərbaycanı dünyada həm də mavi yanacaq ixracatçısı kimi şöhrətləndirmişdir. Bütün bunlar nəinki TANAP-ın, ümumilikdə “Cənub qaz dəhlizi” kimi qlobal bir layihənin gerçəkləşməsi üçün etibarlı zəmin, möhkəm təməl yaratmışdır.

Xatırladaq ki, TANAP Türkiyənin ərazisində 20-dən çox vilayətdən, o cümlədən Ərdəhan, Qars, Ərzurum, Gümüşhanə, Ərzincandan keçərək 1900 kilometrə yaxın məsafə qət edir. Kəmər öz marşrutu boyu Türkiyənin 67 rayonunu və 600 kəndini arxada qoyur. Xəttin quru hissəsinin diametri 56 və 48 düym, Mərmərə dənizi boyunca isə 36 düym təşkil edir. Xəttin dəniz səviyyəsindən maksimal hündürlüyü 2700 metr yüksəklikdə yerləşir. Kəmərdən Türkiyə qazpaylama sisteminə iki qol ayrılır.

TANAP Türkiyənin şərq hüdudlarında “Şahdəniz” qazını Azərbaycanın və Gürcüstanın ərazisi ilə daşıyan Cənubi Qafqaz Boru Kəmərinə (CQBK) bağlanır.

Ardı 5-ci səh.

# Mehriban Əliyevanın Rusiyaya rəsmi səfəri çox uğurlu olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrovu qəbul edib.

AZƏRTAC xəbər verir ki, Xarici İşlər naziri Sergey Lavrov Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev Prezident Vladimir Putinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rusiya dövlətinin başçısına çatdırmağı xahiş etdi.

**Prezident İlham ƏLİYEV** dedi:

- Hörmətli Sergey Viktoroviç.

Sizi Azərbaycanda yenidən salamlamağa şadam. Xarici İşlər nazirlərinin qarşılıqlı səfərləri, müntəzəm səfərləri yaxşı ənənəyə çevrilib. Əlbəttə ki, ton verən prezidentlərdir. Bu il biz Vladimir Vladimiroviç ilə beynəlxalq tədbirlərdə ünsiyyətimizi saymasaq, iki dəfə görüşmüşük - Pekində və Soçidə. Prezidentlər bizim münasibətlərin inkişafına ton verirlər və ilə yekun vurarkən, - zənnimcə, artıq yekun vurmaq olar, - qeyd edirik ki, bu il bizim münasibətlərimiz üçün çox uğurlu olub. Biz bir sıra istiqamətlər üzrə əhəmiyyətli dərəcədə irəliləmişik, beynəlxalq təşkilatlarda bir-birimizi fəal dəstəkləməklə qarşılıqlı siyasi əlaqələri möhkəmlətmişik. Deməliyəm ki, Azərbaycan nümayəndə heyəti tam heyətdə Rusiyanın AŞ PA-ya qayıtmasının lehinə səs verib və beləliklə, həmrəyliyini bildirib. Biz də həmişə beynəlxalq strukturlarda bizi narahat edən məsələlərlə bağlı Rusiya Federasiyasının dəstəyini hiss edirik.

Mehriban Əliyevanın Rusiyaya rəsmi səfəri çox uğurlu olub. Sizdən xahiş etmək istərdim ki, Mehriban Əliyevanın dəvət edilməsinə, ona göstərilən diqqətə, onun “Dostluq” ordeni ilə təltif olunmasına, onun ünvanına deyilən xoş sözlərə, çox konstruktiv söhbətə və praktiki olaraq bizim qarşılıqlı fəaliyyətimizin bütün sahələrinə toxunulan danışıqlara görə Prezident Vladimir Vladimiroviç Putinə təşəkkürümü çatdırasınız. Rusiya Hökumətinin Sədri, Federasiya Şurasının sədri ilə də görüşlər olub. Regionlararası yubiley forumu çox uğurla keçib və əlbəttə, səfərin sonunda Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində “Azərbaycan” pavilyonunun açılması bizim dərin tarixə malik olan sıx dostluq əlaqələrimizin rəmzi oldu.

Bu il iqtisadi baxımdan da uğurlu olub. Əmtəə dövriyyəsi ildən-ilə artır. Hələ ilə yekun vurulmayıb, lakin zənnimcə, artım təxminən 25 faiz civarında olacaq. Bundan aşağı olmayacaq. Nəqliyyat sahəsində də yaxşı nəticələrə nail olmuşuq və Samur çayı üzərindən salınan körpünün yaxın vaxtlarda açılmasını gözləyirik. Bu, əmtəə dövriyyəsini və qarşılıqlı səfərləri xeyli artırmağa imkan verəcək. Yəni çox sahələri sadalamaq olar, lakin əsas budur ki, bizim münasibətlərimizdə dinamizm qorunub saxlanıb. Zənnimcə, dinamizm artırılıb. Bu, böyük nikbinlik doğurur.

Əlbəttə ki, səfər çərçivəsində biz Ermənistan ilə Azərbaycan arasında münaqişənin nizamlanması problemləri barədə danışacağıq. Təəssüf ki, bu istiqamətdə nəzərəçarpan nəticələr olmayıb. Hesab edirəm ki, bunun əsas səbəbi Ermənistan rəhbərliyinin səmərəsiz siyasəti, xüsusən “Qarabağın Ermənistan olması” barədə bəyanatıdır. Şadam ki, həm sizin tərəfinizdən həm də digər ölkələrdən olan həmsədrlər tərəfindən, yumşaq desək, bu qəribə bəyanata düzgün qiymət verilib. Biz Minsk qrupunun həmsədrləri ilə əməkdaşlığı davam etdirəcəyik. Yaxın vaxtlarda Azərbaycanın və Ermənistanın Xarici İşlər nazirlərinin görüşü olacaq. Biz ümidvarıq ki, siz danışıqlar prosesində fəal iştirakınızı davam etdirəcəksiniz. Bir daha xoş gəlmisiniz. Bakıda vaxtınızın xoş keçməsini arzu edirəm.

* * *

Rusiyanın Xarici İşlər naziri **Sergey LAVROV** dedi:

- Çox sağ olun, hörmətli İlham Heydər oğlu. Mənim dost Azərbaycana növbəti səfərim çərçivəsində Sizinlə görüşmək imkanına görə çox sağ olun. Biz həqiqətən münasibətlərimizi analoji şəkildə qiymətləndiririk, onlar yüksəlişdədir, bütün sahələrdə durmadan inkişaf edir. Siz xatırlatdığınız kimi, Prezident Putin ilə Sizin müntəzəm əlaqələriniz bunu təsdiq edir. Həm Çində, həm də Soçidə “Valday” Forumunda Sizin iştirakınız çərçivəsində geniş söhbət oldu. Soçidə çox faydalı ikitərəfli görüş, dünya siyasətinin və regional siyasətin mühüm problemlərinə dair Sizin iştirakınızla çox maraqlı çoxtərəfli diskussiya oldu.

Biz Mehriban Arif qızı Əliyevanın Rusiya Federasiyasına səfərini, onun Prezident Putinlə, Baş Nazir Medvedyevlə, Federasiya Şurasının sədri Matviyenko ilə görüşlərini, Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində “Azərbaycan” pavilyonunun çox mühüm açılış mərasimində, Regionlararası Forumda iştirakını yüksək qiymətləndirmişik və bu səfərin gedişində müzakirə edilən təşəbbüsləri biz hökmən həyata keçirəcəyik. Bu təşəbbüslər, o cümlədən bizim hökumətlərarası iqtisadi əməkdaşlığımıza yeni bir mövzu - innovasiyalar və yüksək texnologiyalar mövzusu əlavə edilməsinə aiddir, xüsusi yol xəritəsi yaradılacaq. Artıq bir neçə gündən sonra Hökumətlərarası Komissiya bu sahədə işlərin vəziyyətini nəzərdən keçirəcək.

Siz də xatırlatdığınız kimi, əmtəə dövriyyəsi sürətlə artır. Əmtəə dövriyyəsinin həcmi yəqin ki, 3 milyard dollara yaxın olacaq. Rusiya Federasiyasının Azərbaycan iqtisadiyyatına birbaşa investisiyalarının həcmi 1,5 milyard dollar olub. Rusiya Federasiyasının 70-dən çox subyekti Azərbaycanla əməkdaşlıq edir. Azərbaycanda Rusiya kapitalının iştirakı ilə 300-dən çox müəssisə fəaliyyət göstərir. Rusiyada da Azərbaycan kapitalı öz mövqelərini getdikcə möhkəmlədir.

Mehriban Arif qızı Əliyevanın Rusiya Federasiyasına səfərinin daha bir maraqlı və hesab edirəm ki, çox vacib nəticəsi Rusiya-Azərbaycan Gənclər Forumunun daha müntəzəm keçirilməsi barədə razılaşma oldu. Bu, varislik baxımından, tarixi yaddaşın qorunub saxlanması və həm Rusiyada, həm də Azərbaycanda bizim gənc nəslin münasibətlərimizə həmişə xas olmuş dostluq, mehriban qonşuluq ruhunda tərbiyəsi baxımından prinsipial əhəmiyyət kəsb edir. Həm regional, həm qlobal, həm də universal beynəlxalq təşkilatlarda əməkdaşlığımıza gəldikdə, biz sıx qarşılıqlı fəaliyyəti, həmişə bir-birinin mövqelərini nəzərə almaq istəyini çox yüksək qiymətləndiririk. Biz bundan sonra da ortaq mövqelərimizin dəstəklənməsinə, Azərbaycan və Rusiya üçün xüsusi maraq doğuran mühüm məsələlərin həllinə kömək edəcəyik. Bu, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına aiddir. Biz həm Vyana sammitində, həm sonradan nazirlərin Moskva görüşündə etimad tədbirləri, humanitar əlaqələrin, kütləvi informasiya vasitələri xətti ilə əlaqələrin nizamlanması barədə əldə edilmiş razılaşmaların bu il təsdiqlənməsində və həyata keçirilməsində maraqlıyıq. Onlar tədricən reallaşır və ümidvaram ki, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin bu həftə keçiriləcək görüşü bu prosesləri əlaqələndirməyə imkan verəcək. Eyni zamanda, Sizinlə razıyam ki, siyasi nizamlama, uzunmüddətli nizamlama baxımından hələ çox iş görülməlidir. Burada Sizin bu tezisinizi tam dəstəkləyirəm ki, hər iki tərəfin bəyəndiyi əsas prinsiplərə, BMT Nizamnaməsində və Helsinki Yekun Aktında təsbit olunmuş prinsiplərə zidd olan ritorikadan çəkinmək lazımdır.

Buna görə də, hörmətli İlham Heydər oğlu, Sizinlə söhbət etmək imkanına görə bir daha səmimi-qəlbdən minnətdarlığımı bildirirəm. Ümidvaram ki, sabah da davam edəcək bu səfər bizim münasibətlərimizi daha yüksək etimada əsaslanan, daha məhsuldar səviyyəyə çatdırmağa kömək edəcək. Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

## Milli Məclisin iclasında parlamentin buraxılması və növbədənkənar seçkilərin keçirilməsi ilə bağlı Prezidentə müraciət qəbul edilib

Dekabrın 2-də Milli Məclisin plenar iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclası açan Milli Məclisin Sədri Oqtay Əsədov bugünkü plenar iclasda parlamentdə çoxluq təşkil edən Yeni Azərbaycan Partiyasını təmsil edən deputatların parlamentin buraxılması və növbədənkənar seçkilərin keçirilməsi ilə bağlı etdiyi müraciətin müzakirəyə çıxarılacağını bildirdi.

Spiker bu barədə danışaraq dedi ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müasir dövrün tələbləri səviyyəsində qurulan daxili və xarici siyasəti ölkəmizin ardıcıl və dinamik inkişafını təmin edir. Ulu Öndər Heydər Əliyevin başlatdığı işlərin yeni çağırışlar şəraitində yaradıcı şəkildə davam etdirilməsi Azərbaycanı öz tarixinin ən qüdrətli dövlətinə çevirib. Prezident İlham Əliyev tərəfindən həyata keçirilən köklü islahatlar son dövrdə keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Azərbaycan Respublikasının Nazirlər Kabinetində, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında, məhkəmə-hüquq sistemində, regional idarəetmə orqanlarında, ümumiyyətlə, dövlət həyatının bütün sahələrində aparılan struktur və kadr islahatları cəmiyyətdə rəğbətlə qarşılanır.

Həyata keçirilən islahatların sistemli xarakter daşıması, qarşıya çıxan yeni çağırışlar, cəmiyyətin gözləntiləri, digər amillər qanunvericilik hakimiyyətində də islahatların dərinləşdirilməsini, parlamentin yenilənməsini zəruri edib. Məlum olduğu kimi, noyabrın 28-də parlamentdə çoxluq təşkil edən Yeni Azərbaycan Partiyasının üzvləri Milli Məclisə parlamentin buraxılması və növbədənkənar seçkilərin keçirilməsi haqqında müraciət ediblər və bu məsələ ilə əlaqədar iclasın çağırılmasını xahiş ediblər.

Ardı 3-cü səh.

## Siyasi tariximizdə mütərəqqi ilk

Dövlətin qüdrətini göstərən əsas əlamətlərdən biri də budur ki, verdiyi qərarların, atdığı addımların hədəfləri sabahda, birigündə yox, bir neçə onilliklər sonrada görünsün.

Milli dövlətçilik tarixində belə bir mərhələyə gəlib çatmaq nə qədər xalqa nəsib olur, amma?!

Bu səviyyəyə yetişməkdən ötrü gərək çox böyük əziyyətlərdən, sınaqlardan keçəsən. Saysız-hesabsız maneələri aşmağa, üzərinə gələn təhlükələri dəf etməyə təpərin olsun.

Ən mühümü isə xalqın dəstəyindən güc alan ərdəmli, qətiyyətli liderin bu işin misilsiz fədakarlıqlarını üzərinə götürüb toplumu öz dövlətçilik ideallarına qovuşdursun. Dövlətin, xalqın yaxın keçmişi, bugünü qədər gələcəyinin də aydın mənzərəsini yarada bilsin.

Ardı 4-cü səh.

## YAP-ın təşəbbüsü təqdir edilir

### Müxalifət partiyaları hesab edirlər ki, növbədənkənar parlament seçkiləri Milli Məclisin fəaliyyətinə yeni dinamizm verəcək

Yeni Azərbaycan Partiyasının Siyasi Şurasının parlamentin buraxılması və yeni növbədənkənar seçkilərin keçirilməsi təşəbbüsü digər siyasi təşkilatlar, hətta parlamentdə təmsil olunan müxalifət partiyaları tərəfindən də dəstəklənir.

Qeyd edilir ki, Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar icra və məhkəmə hakimiyyəti ilə əhatələnməməli, qanunverici hakimiyyət sferasından da kənarda qalmamalıdır. Parlamentin buraxılması və növbədənkənar seçkilərin keçirilməsi praktikasına dünya ölkələrində tez-tez rast gəlmək olur. Bu, Azərbaycanın siyasi həyatında ilk dəfə olmasına baxmayaraq, onu qeyri-adi formada qiymətləndirməyə ehtiyac yoxdur.

Ardı 4-cü səh.

## İnkişafa təkan verən dostluq münasibətləri

Dünyada heç bir dövlət özünü təcrid etməklə inkişaf yoluna qədəm basa bilməz. Dövlətlərin, xalqların, millətlərin tərəqqisinə təkan verən əsas şərt, onların qloballaşmasını labüd edən ilk addım məhz dünya birliyində dostluq, həmrəylik əlaqələrinin yaranması, görüb-götürmək, dünyaya, bəşəriyyətə töhfələr vermək ləyaqətinə, bacarığına söykənir.

Azərbaycanın müstəqil dövlət kimi əldə etdiyi nailiyyətlərin mühüm hissəsi uğurlu xarici siyasət kursundan irəli gəlir. Kifayət qədər mürəkkəb geostrateji şəraitdə ölkəmiz balanslaşdırılmış xətti təmin etməyi, dünyanın böyük güclərinin regional maraqlarını uzlaşdırmağı bacarır. Yaxın qonşularla bərabərhüquqlu, mehriban münasibətlərin qorunub saxlanması, əlaqələrin müxtəlif sahələrdə birgə əməkdaşlığa, inkişafa yönəlməsi Azərbaycan diplomatiyasının uğurudur.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın bu günlərdə Rusiyaya rəsmi səfəri, Moskvada keçirdiyi yüksək səviyyəli görüşlər də bunun daha bir parlaq nümunəsinə çevrildi.

Ardı 5-ci səh.

# CISCO şirkəti ilə əməkdaşlıq çox yaxşı səviyyədədir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də CISCO şirkətinin qlobal innovasiyalar üzrə vitse-prezidenti Qay Didrixin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvlərini salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Sizi yenidən görmək çox xoşdur. Xoş gəlmisiniz.

CISCO şirkətinin vitse-prezidenti **Qay DİDRİX** dedi:

- Təşəkkür edirəm. Sizi görmək və bu gözəl şəhərə yenidən qayıtmaq hər zaman çox xoşdur.

**Prezident İlham ƏLİYEV:** Təşəkkür edirəm. Biz dəfələrlə görüşmüşük. Bu görüşlərin hamısı sizin şirkət və Azərbaycan arasında uğurla inkişaf edən tərəfdaşlığın irəliyə doğru aparılması baxımından faydalı olub. Bilirəm ki, burada həyata keçirmək üçün çoxlu planlarınız olub və bütün planlarınızı reallaşdırmısınız. Sizin şirkətlə hakimiyyət orqanları arasında əməkdaşlıq çox yaxşı səviyyədədir. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi sizin üçün yaxşı tərəfdaşdır. Bildiyiniz kimi, biz gələcəklə bağlı planlarımızı, Azərbaycanın müasirləşdirilməsi, informasiya texnologiyaları sektorunun inkişafı ilə bağlı planlarımızı dəfələrlə müzakirə etmişik. Xüsusən də indi, yəqin ki, siz eşitmisiniz, biz hazırda çox aktiv transformasiya mərhələsindəyik. Struktur islahatları, siyasi, iqtisadi islahatlar, məsuliyyətin gücləndirilməsi ilə bağlı tədbirlər, şəffaflıq - bütün bunlar hamısı ölkəyə böyük faydalar gətirir, həm siyasi, həm də iqtisadi.

Əlbəttə ki, iqtisadiyyatımızın rəqəmsallaşdırılması hazırda bizim gündəliyimizdədir. Bu yaxınlarda Prezident Administrasiyasında aparılan struktur islahatlarından sonra bizim müxtəlif hökumət strukturlarının bu sahədəki fəaliyyətlərini koordinasiya edəcək və özəl sektorun inkişafını asanlaşdıracaq innovasiya departamentimiz var. Biz hazırda həqiqətən çox vacib beynəlxalq platformaya çevrilən "Bakutel" sərgisinin açılışı ərəfəsindəyik. Bu, təkcə sərgi və bu sahədəki əsas şirkətlərin nailiyyətlərinin təqdimatı deyil, həm də işgüzar əlaqələrin gücləndirilməsi baxımından imkandır. Mən ənənəvi olaraq, "Bakutel" sərgisində iştirak edirəm, ilk növbədə, bu məsələnin inkişafı ilə bağlı hökumətin mövqeyini göstərmək baxımından. İkincisi də, bir il ərzində hansı yeniliklərin olduğunu görmək baxımından da mənim üçün maraqlıdır. Çünki zaman çox sürətlə keçir. Bu sektorda dəyişikliklər zamandan da sürətlə baş verir.

**Qay DİDRİX:** Elədir.

**Prezident İlham ƏLİYEV:** Siz də builki sərgidə iştirak edəcəksiniz. Sizə uğurlar arzu edirəm və əminəm ki, bizim əməkdaşlığımız uğurla davam edəcək.

**Qay DİDRİX:** Təşəkkür edirəm. Siz möhtəşəm tərəfdaş olmusunuz. Bizimlə əməkdaşlıq edən elə bir ölkə yoxdur ki, onun Prezidenti detallarla bu qədər diqqətlə və müdrikcəsinə məşğul olsun. Biz bunu bəyənirik. Biz birlikdə işlə bağlı danışa bilirik. Bu, əladır. Bir sıra şərh verməzdən öncə "Formula-1" yarışlarına şəxsi dəvətə görə Sizə təşəkkür etmək istərdim. Mən çox əyləndim. İlk növbədə, fantastik yarış idi. Biz "Maklaren"lə əlaqəli olduğumuzdan hər il UF1 yarışlarını təşkil etmək imtiyazına sahibəm. Sözsüz ki, Bakı yarışı mənim sevimli yarışımdır.

**Prezident İlham ƏLİYEV:** Təşəkkür edirəm.

**Qay DİDRİX:** Bakı çox qədim şəhərdir və insanlar çox mehribandırlar. Çox yaxşı təşkil olunub və trek möhtəşəmdir. Təbrik edirik. Sizin orada mükafatları təqdim etdiyinizi görmək gözəl idi.

**Prezident İlham ƏLİYEV:** Bəli, bu, artıq ənənədir, ənənəvi mərasimdir. Ən fəal tamaşaçıların rəyinə görə, Bakıdakı yarış lap əvvəldən həqiqətən də cəlbedici olub. Birincisi, bu yarış Azərbaycanda çox populyar deyildi. Çox insanlar hətta qaydaları, bunun necə baş verdiyini başa düşmürdülər, lakin indi artıq Bakıda çox sayda yarış keçiriləndən sonra o, daha da məşhurlaşır. Ən mühümü isə odur ki, o, Bakıya çox sayda turist cəlb edir. Biz faktiki olaraq müşahidələr aparmışıq. Azərbaycana gələn turistlərin sayının artması məhz birinci yarışdan sonra başlayıb. Birinci yarışdan sonra bizdə 24 faiz artım oldu. İkinci yarışdan sonra əlavə olaraq 26 faiz artım oldu. Maraqlısı ondadır ki, bu ilin oktyabrında, - çünki oktyabr turistlər üçün, belə demək mümkündürsə, əlverişli ay deyil, adətən onlar yayda gəlirlər, - ötən ilin oktyabrı ilə müqayisədə bizdə 25 faiz artım qeydə alındı. Ona görə də "Formula-1" Azərbaycana həqiqətən də çoxlu dividend gətirdi. Ölkə daha çox tanındı və yüz milyonlarla dollar qazanc əldə etdi. Mən biznes dairələrini, xidmət sektorunda və digər sektorlarda olanları nəzərdə tuturam. Beləliklə, bu, çoxlu gəlir gətirir və həmçinin ölkənin yaxşı təqdimatıdır.

# Əhalinin sosial müdafiəsinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Əhalinin sosial müdafiəyə xüsusi ehtiyac duyan təbəqələrinin rifahının yüksəldilməsi, onların cəmiyyətə fəal inteqrasiyası istiqamətində son illərdə mühüm addımlar atılmış, bu qəbildən olan insanların çoxsaylı sosial proqramlara, o cümlədən sağlamlıq, reabilitasiya, ödənişsiz istirahət, texniki bərpa və nəqliyyat vasitələri ilə təminat proqramlarına cəlb olunması uğurla həyata keçirilmişdir. Xüsusən bu dövrdə bərpa-müalicə şəbəkəsinin bölgələr üzrə genişləndirilməsi təmin olunmuş, sağlamlıq imkanları məhdud uşaqların tibbi-sosial reabilitasiyası işinin gücləndirilməsi məqsədilə uşaq bərpa mərkəzləri yaradılmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bir sıra sosial təyinatlı obyektlərin layihələndirilməsi, tikintisi, əsaslı təmiri, bərpa yolu ilə gücləndirilməsi və avadanlıqla təchizatı məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.18.4-cü yarımbəndində göstərilən vəsaitin 20 019 100 (iyirmi milyon on doqquz min yüz) manatı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 dekabr 2019-cu il*

# Prezident İlham Əliyev Dilarə Seyidzadəyə "Şərəf" ordenini təqdim edib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də Dilarə Seyidzadəyə "Şərəf" ordenini təqdim edib.

AZƏRTAC xəbər verir ki, **Prezident İlham ƏLİYEV** dedi:

- Hörmətli Dilarə xanım, bildiyiniz kimi, keçən həftənin sonunda Prezident Administrasiyasının yeni strukturu təsdiq edildi. Bu struktura görə, uzun illər rəhbərlik etdiyiniz katiblik, bir neçə şöbə ləğv olundu və bir neçə yeni şöbə yaradıldı. Bu, təbii prosesdir. Çünki ölkəmizin hər yerində islahatlar aparılır, o cümlədən struktur islahatları. Yaxın günlərdə Nazirlər Kabinetinin yeni strukturu təsdiq olunacaqdır. Yaxın gələcəkdə parlament yenidən formalaşacaq. Bu, təbii prosesdir. Eyni zamanda, gəncləşmə prosesi aparılır, bu da təbiidir. Çünki biz indi gənc kadrlara gərək imkan yaradaq ki, onlar öz bacarığını göstərsinlər.

Siz 1993-cü ildə Prezident Administrasiyasına Ulu Öndər Heydər Əliyev tərəfindən dəvət olunmusunuz. Demək olar ki, Heydər Əliyev Prezident kimi fəaliyyətə başlayandan dərhal sonra sizə bu böyük etimadı göstərmişdir və on il ərzində onun rəhbərliyi altında işləmisiniz. Yəni siz 26 ildir Prezident Administrasiyasında çalışırsınız, onun 20 ilini katibliyin rəisi kimi. Ulu Öndərin sizə olan xoş münasibətini mən şəxsən bilirəm, bunun şahidi olmuşam. O, sizə çox inanırdı, güvənirdi və məhz buna görə sizə böyük vəzifəni etibar etmişdir.

Son 16 il ərzində biz birlikdə işləyirik. Mən də sizin işinizdən həmişə razı olmuşam. Siz çox məsuliyyətli, bilikli, peşəkar insan kimi ölkəmizin ümumi inkişafına böyük töhfələr vermisiniz. Bütün bunları nəzərə alaraq, mən sizi yüksək dövlət ordeni - "Şərəf" ordeni ilə təltif edirəm. Siz bu yüksək ordenə layiqsiniz. Bu orden sizin gördüyünüz işlərə dövlət tərəfindən verilən yüksək qiymətdir. İcazə verin, bu yüksək mükafatı sizə təqdim edim.

**Dilarə SEYİDZADƏ:** Çox sağ olun.

* * *

Dövlət başçısı "Şərəf" ordenini Dilarə Seyidzadəyə təqdim etdi.

* * *

**Prezident İlham ƏLİYEV:** Təbrik edirəm sizi.

**Dilarə SEYİDZADƏ:** Çox sağ olun, cənab Prezident. Bilirsiniz, bu gün mənim üçün çox böyük bir gündür. Mən bütün həyatımı bir tarixçi kimi çalışmışdım. Bu, mənim üçün çox böyük bir şərəf idi. Siz çox sağ olun, elə bu ordenin də adı "Şərəf"dir. Çox şadam ki, böyük, unudulmaz şəxsiyyət, bizim dahi rəhbərimiz Heydər Əliyev mənə inanıb, etimad göstərib, əvvəlcə özünə köməkçi, sonra isə katiblik yaradıb qarşımda çox məsuliyyətli vəzifələr qoymuşdur. O, katibliyi yaradanda mənə işin hamısını izah etmişdi. Görünür, o, hesab edirdi ki, həmin dövrdə katiblik çox lazımi işlər görəcək.

Mən Sizə çox böyük minnətdarlığımı bildirirəm ki, Siz də bizə etimad göstərdiniz, mənim başçılıq etdiyim katibliyə diqqət, qayğı göstərdiniz. Biz bu diqqət və qayğını hər gün hiss edirdik. Biz fəxr edirdik ki, gündəlik işimizlə Sizə nəsə kömək göstəririk. Bu, bizim həyatımızın mənası idi.

Bu gün də yüksək diqqət göstərib, vaxt ayırıb məni qəbul etdiniz, mənə belə böyük bir mükafat verdiniz. Mən həmişə Sizin çıxışlarınıza valeh oluram, çox diqqətlə qulaq asıram. Onlar bizim tariximizi daim hər bir insanın ürəyinə çatdırır. Deyə bilərəm ki, Azərbaycan xalqının çox böyük oğlusunuz. Biz hamımız Sizinlə həmişə fəxr edirik, Sizi hamı sevir. Arzum odur ki, Siz həmişə xoşbəxt olasınız, həmişə bizim bu gözəl Vətənimizi irəliyə aparasınız.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun. Xoş sözlərə görə təşəkkür edirəm. Sizə də cansağlığı arzulayıram. Əminəm ki, Siz çox gözəl tarixçi, ictimai xadim kimi bundan sonra da ölkəmizin ümumi inkişafına dəyərli töhfə verəcəksiniz və Azərbaycan tarixini, xüsusilə müasir tarixini olduğu kimi, bütün həqiqətləri tam təfsilatı ilə nəzərə alaraq həm ictimaiyyətə, həm də xüsusilə gənc nəslə çatdıracaqsınız.

Çünki mənim Bakı Dövlət Universitetinin 100 illiyinə həsr edilmiş tədbirdəki çıxışım məhz böyük dərəcədə gənclərə verilən çox ciddi mesaj idi. Həqiqəti onlar olduğu kimi bilməlidirlər, bugünkü reallıqları qiymətləndirməlidirlər, Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqının qarşısında göstərdiyi tarixi xidmətləri bilməlidirlər. Biz hamımız o acı günləri yaxşı xatırlayırıq. Azərbaycanda xaos, anarxiya, özbaşınalıq hökm sürürdü, ölkəmizin müstəqilliyi sual altında idi. Demək olar ki, Azərbaycan parçalanma ərəfəsində idi. Məhz Heydər Əliyevin qətiyyəti, cəsarəti, biliyi, xalqın ona olan inamı bizi bu ağır vəziyyətdən çıxardı və inkişaf yoluna qoydu.

Ona görə hesab edirəm ki, müasir tariximizlə bağlı daha böyük əsərlər yazılmalıdır, həm elmi əsərlər, həm publisistik əsərlər. Çünki buna böyük ehtiyac var. Xüsusilə ona görə ki, biz bu tarixi yaşamışıq, biz hamımız o tarixin şahidləriyik. Hesab edirəm ki, bu tarixi olduğu kimi çatdırmaq, onu bizim tarixlə bağlı kitablarda əks etdirmək böyük iş olar. Əminəm ki, Siz tarixçi kimi və Azərbaycan dövlətçiliyinin formalaşmasında önəmli rol oynamış insan kimi bundan sonra da öz elmi fəaliyyətinizdə bu işləri görəcəksiniz. Sizə cansağlığı və yeni uğurlar arzulayıram.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

# Rusiya Federasiyasının Prezidenti zati-aliləri cənab Vladimir Putinə

Hörmətli Vladimir Vladimiroviç!

Zabaykalyedə yol-nəqliyyat hadisəsi nəticəsində çoxsaylı insan tələfatı haqqında xəbər məni dərindən kədərləndirdi.

Sizə, həlak olanların doğmalarına və yaxınlarına səmimi-qəlbdən başsağlığı verir, zərərçəkənlərin hamısının tezliklə sağalmasını arzu edirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı, 2 dekabr, 2019-cu il*

# D.B.Seyidzadəyə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasında dövlət qulluğunda göstərdiyi xidmətlərə görə Dilarə Bağır qızı Seyidzadəyə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 dekabr 2019-cu il*

# G.H.Kərimovun Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Gündüz Hacı oğlu Kərimov Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 dekabr 2019-cu il*

# Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə

## Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikasında həyata keçirilən köklü islahatlar son dövrdə keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Azərbaycan Respublikasının Nazirlər Kabinetində, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında, məhkəmə-hüquq sistemində, regional idarəetmə orqanlarında, ümumiyyətlə, dövlət və cəmiyyət həyatının bütün sahələrində aparılan struktur və kadr islahatları ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmaqdadır.

Eyni zamanda, bu islahatların daha da sürətləndirilməsi və bütün dövlət hakimiyyəti qollarını əhatə etməsi üçün Azərbaycan Respublikası Milli Məclisinin də fəaliyyətinin təkmilləşdirilməsinə, səmərəliliyinin artırılmasına, yenilənməsinə, ölkənin dinamik inkişafı və hərtərəfli dərin islahatlar strategiyasına uyğunlaşdırılmasına ehtiyac duyulur.

Azərbaycan Respublikasının Milli Məclisi ölkədə həyata keçirilən islahatların daha da genişlənməsi və dərinləşməsi prosesindən kənarda qalmamalı, islahatların qanunvericilik orqanını da əhatə etməsi məqsədilə dövlətçilik nümunəsi göstərməlidir. Bu baxımdan Azərbaycan Respublikasının Milli Məclisində çoxluq təşkil edən Yeni Azərbaycan Partiyasının üzvləri Milli Məclisin Sədrinə müraciət edərək belə vəziyyətdə parlament fəaliyyətinin həyata keçirilməsinin mümkün olmayacağı qənaətinə gəldiklərini və növbədənkənar seçkilər keçirilməsinin zəruri olduğunu bildirmişlər. Həmin müraciətin Milli Məclisin plenar iclasında müzakirəsi zamanı digər partiyaları təmsil edən deputatların, habelə heç bir partiyaya mənsub olmayan deputatların əksəriyyəti Yeni Azərbaycan Partiyası təmsilçilərinin bu təşəbbüsü ilə həmrəylik nümayiş etdirərək parlament fəaliyyətinin yaranmış vəziyyətdə davam etdirilməsinin mümkünsüz olduğunu bəyan etmişlər.

Azərbaycan Respublikası Milli Məclisi deputatlarının mütləq əksəriyyətinin parlament fəaliyyətinin həyata keçirilməsinin mümkünsüzlüyü barədə qəti mövqelərinin mövcudluğunun parlamentin öz fəaliyyətini davam etdirməsinin qarşısını aldığı nəzərə alınaraq, deputatların ölkə vətəndaşları tərəfindən yenidən seçilməsi zəruridir. Öz səlahiyyətlərini artıq icra edə bilməməsi şəraitində Azərbaycan Respublikasının Milli Məclisi hesab edir ki, Azərbaycan parlamenti ölkədə aparılan genişmiqyaslı institusional və kadr islahatlarından geri qalmamalı, fəaliyyətini yenidən qurmalıdır. Buna görə də Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycan Respublikası Konstitusiyasının 94-cü və 95-ci maddələrində nəzərdə tutulmuş səlahiyyətlərinin yuxarıda qeyd olunan müasir çağırışlara uyğun həyata keçirilməsi və xalqın etimadının yenidən qazanılması üçün Milli Məclis buraxılmalı və parlamentə növbədənkənar seçkilər keçirilməlidir.

Yuxarıda şərh edilənlərə əsasən, Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin III hissəsini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Konstitusiyasının $98^1$-ci maddəsinə əsasən Azərbaycan Respublikası Milli Məclisinin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi barədə Azərbaycan Respublikasının Prezidentinə müraciət edilsin.

***Oqtay ƏSƏDOV,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 2 dekabr 2019-cu il*

# Azərbaycan Prezidenti parlamentin buraxılması barədə Milli Məclisin qərarının Konstitusiyaya uyğun olub-olmaması ilə bağlı qərar qəbul etməsi üçün Konstitusiya Məhkəməsinə sorğu göndərib

Azərbaycan Respublikasının Prezidenti "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında" Milli Məclisin müraciətində göstərilmiş parlamentin buraxılması məsələsinin Konstitusiyaya uyğunluğu ilə bağlı dekabrın 2-də Konstitusiya Məhkəməsinə sorğu göndərib.

AZƏRTAC xəbər verir ki, sorğuda deyilir:

"Azərbaycan Respublikasının Milli Məclisi deputatların səs çoxluğu ilə "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinə müraciət edilməsi barədə" qərar qəbul etmişdir. Qeyd edilən qərar ilə Azərbaycan Respublikasının Prezidentindən Milli Məclisin Azərbaycan Respublikası Konstitusiyasının $98^1$-ci maddəsinə əsasən buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi xahiş edilir.

Qərarda bildirilir ki, Milli Məclis üzvlərinin mütləq əksəriyyətində parlament fəaliyyətinin həyata keçirilməsinin mümkünsüzlüyü barədə mövqe formalaşmış və nəticədə parlamentin öz fəaliyyətini davam etdirməsi qeyri-mümkün olmuşdur. Bu baxımdan da qərara əsasən Milli Məclisin Konstitusiyanın 94-cü və 95-ci maddələrində nəzərdə tutulan səlahiyyətlərinin müasir çağırışlara uyğun həyata keçirilməsi və xalqın etimadının yüksək səviyyədə saxlanılmasının təmin edilməsi üçün Milli Məclis buraxılmalı və növbədənkənar parlament seçkiləri keçirilməlidir.

Milli Məclisin qərarı üzrə yekun qərar qəbul etməzdən əvvəl, hazırkı şərtlərdə Milli Məclisin buraxılmasının Azərbaycan Respublikası Konstitusiyasının $98^1$-ci maddəsinə uyğun olub-olmayacağı barədə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin mövqeyinin öyrənilməsi zərurəti yaranmışdır.

Qeyd edilənləri və Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-ci bəndini rəhbər tutaraq, xahiş edirəm ki, yaranmış vəziyyətdə Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikası Milli Məclisinin "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" qərarı əsasında Milli Məclisi buraxmasının Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olub-olmayacağı barədə qərar qəbul edəsiniz".

# Konstitusiya Məhkəməsinin Plenumu Milli Məclisin buraxılmasının Konstitusiyaya uyğunluğu barədə Prezidentin sorğusuna dekabrın 4-də baxacaq

Dekabrın 2-də Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Palatasının növbəti iclası keçirilib.

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-ci bəndinə və "Konstitusiya Məhkəməsi haqqında" qanunun 7.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli 1717-VQR nömrəli "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" qərarı əsasında Azərbaycan Respublikası Milli Məclisinin buraxılmasının Azərbaycan Respublikası Konstitusiyasına uyğunluğu barəsində Azərbaycan Respublikası Prezidentinin sorğusuna baxılaraq, plenumun icraatına qəbul edilməsi haqqında qərardad çıxarılıb.

Sorğuya mahiyyəti üzrə, tərəflərin iştirakı ilə Konstitusiya Məhkəməsi Plenumunun dekabrın 4-də saat 12:00-a təyin edilmiş iclasında baxılacaq.

# Azərbaycanın Baş Naziri 2020-ci il üçün Novruz, Ramazan və Qurban bayramları ilə bağlı sərəncam imzalayıb

Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov 2020-ci il üçün Novruz, Ramazan və Qurban bayramları günlərinin müəyyən edilməsi haqqında sərəncam imzalayıb.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, sərəncamda deyilir ki, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 105-ci maddəsinin 4-cü hissəsinə və "Azərbaycan Respublikasının Əmək Məcəlləsinə dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2006-cı il 8 dekabr tarixli 194-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 dekabr tarixli 489 nömrəli fərmanının 2-ci hissəsinə əsasən 2020-ci il martın 20, 21, 22, 23, 24-ü Novruz bayramı, mayın 24, 25-i Ramazan bayramı, iyulun 31-i, avqustun 1-i Qurban bayramı günləri müəyyən edilsin. Azərbaycan Respublikası Əmək Məcəlləsinin 105-ci maddəsinin 2-ci hissəsinə əsasən bu sərəncamda nəzərdə tutulan günlər iş günü hesab edilmir.

# Baş Nazir Əli Əsədov iş və istirahət günlərinin yerinin dəyişdirilməsi haqqında qərar imzalayıb

Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov iş və istirahət günlərinin yerinin dəyişdirilməsi haqqında qərar imzalayıb.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, qərarda qeyd edilir ki, Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 105-ci maddəsinin 7-ci hissəsinə və "Azərbaycan Respublikasının Əmək Məcəlləsinə dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2006-cı il 8 dekabr tarixli 194-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 dekabr tarixli 489 nömrəli fərmanının 2-ci hissəsinə əsasən iş və istirahət günlərinin ardıcıl olmasını təmin etmək məqsədilə 2019-cu ilin 28 və 29 dekabr istirahət günləri ilə 2020-ci ilin 3 və 6 yanvar iş günlərinin yerləri dəyişdirilsin.

# Bakıda Birləşmiş Ərəb Əmirliklərinin milli bayramı qeyd edilib

Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) milli bayramı - müstəqilliyin 48-ci ildönümü münasibətilə dekabrın 2-də bu ölkənin Azərbaycandakı səfirliyi rəsmi qəbul təşkil edib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət himnləri səsləndirildikdən sonra səfir Məhəmməd Əhməd Hamil Əl-Qubeysi çıxış edərək BƏƏ-nin inkişaf tarixi barədə məlumat verib. Bildirib ki, Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında hörmət və əməkdaşlıq prinsiplərinə əsaslanan ikitərəfli münasibətlər, ölkə başçılarının qarşılıqlı səfərləri, getdikcə genişlənən ticari-iqtisadi və mədəni əlaqələr, BƏƏ-dən təşrif buyuran turistlərin sayının artması müxtəlif sahələrdə əlaqələrimizin nə dərəcədə möhkəm olmasına dəlalət edir. Səfir ölkələrimiz arasında mövcud olan əlaqələrin genişləndirilməsinə öz töhfəsini verən BƏƏ-Azərbaycan Ticarət Məclisinin uğurla fəaliyyət göstərdiyini deyib.




Azərbaycan Prezidenti və hökuməti adından Birləşmiş Ərəb Əmirlikləri xalqını milli bayram münasibətilə təbrik edən İqtisadiyyat naziri Mikayıl Cabbarov ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olduğunu söyləyib. Nazir bildirib ki, Azərbaycan BƏƏ ilə münasibətlərə xüsusi önəm verir. Qarşılıqlı hörmətə, möhkəm dostluğa və qardaşlığa, bunu daha da zənginləşdirən islam irsinə əsaslanan əlaqələrimiz həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində yüksələn xətt üzrə inkişaf edir. Bunu şərtləndirən əsas amil kimi ölkə rəhbərlərinin siyasi iradəsi və yaxın dostluq münasibətlərini xüsusi vurğulamaq lazımdır.

Nazir BƏƏ-nin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində ölkəmizin haqlı mövqeyini dəstəkləməsini yüksək qiymətləndirib. Bildirib ki, ölkələrimiz arasında iqtisadiyyatın bir çox sahələrində əməkdaşlıq imkanları genişdir. Dövlət başçısının müəyyənləşdirdiyi siyasətə uyğun olaraq birgə səylərimiz əsasında Azərbaycan-BƏƏ əməkdaşlığı bundan sonra daha da inkişaf edəcək.

# Milli Məclisin iclasında parlamentin buraxılması və növbədənkənar seçkilərin keçirilməsi ilə bağlı Prezidentə müraciət qəbul edilib

Əvvəli 1-ci səh.

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin III hissəsinə görə, Milli Məclisin bu cür məsələləri müzakirə edib qərar qəbul etmək səlahiyyəti var. Biz bu gün həmin məsələni müzakirə etmək üçün yığışmışıq.

Sonra Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri, YAP icra katibinin müavini Siyavuş Novruzov partiyanın təşəbbüsünü əsaslandıraraq dedi: "Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət idarəçiliyi ənənələri, daxili və xarici siyasət kursu Yeni Azərbaycan Partiyasının sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə çox böyük uğurla davam etdirilir. Sosial-iqtisadi tərəqqi, ölkə iqtisadiyyatının dinamik inkişafı, əhalinin rifahının daha da yaxşılaşdırılması siyasətinin həyata keçirilməsi daha geniş hədəflərin müəyyənləşməsini və daha dərin islahatların aparılmasını zərurətə çevirir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə islahatlar konsepsiyası hazırda daha böyük dinamizm qazanmaqdadır. Nazirlər Kabinetində, məhkəmə-hüquq sistemində və regional idarəetmə orqanlarında struktur və kadr islahatları cəmiyyətdə rəğbətlə qarşılanır. Cəmiyyət inanır ki, islahatlar bundan sonra da uğurla davam etdiriləcək. YAP üzvlərinin çoxluq təşkil etdiyi Milli Məclis ölkədə həyata keçirilən islahatların daha da genişlənməsi və dərinləşməsi prosesindən kənarda qalmamalı, islahatların qanunvericilik sahəsini də əhatə etməsi məqsədilə prinsipial mövqe və dövlətçiliyə xidmət nümunəsi göstərməlidir".





Foto F.BAĞIROVUNDUR

Komitə sədri deputatları YAP üzvlərinin parlamentin buraxılması və növbədənkənar seçkilərin keçirilməsi ilə bağlı müraciətinə dəstək verməyə çağırdı.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli müzakirəyə çıxarılmış məsələni hüquqi cəhətdən əsaslandırdı.

Sonra Milli Məclisin qərar layihəsini hazırlamaq üçün parlament Sədrinin müavini Bahar Muradova, komitə sədrləri Əli Hüseynli, Səməd Seyidov, deputatlar Fəzail İbrahimli və Sahibə Qafarovadan ibarət redaksiya komissiyası yaradıldı.

Müzakirələr zamanı çıxış edən deputatlar Hikmət Məmmədov, Fəzail İbrahimli, Azay Quliyev, Aqiyə Naxçıvanlı, Elşən Musayev, Sahibə Qafarova, Azər Badamov, Səməd Seyidov, Şəmsəddin Hacıyev, Qüdrət Həsənquliyev, Kamilə Əliyeva, Elmira Axundova, Fəzail Ağamalı, Məlahət İbrahimqızı, Fazil Mustafa, Asim Mollazadə, Musa Quliyev, Jalə Əliyeva, Rasim Musabəyov, Eldar İbrahimov, Nəsib Məhəməliyev, Arif Rəhimzadə Milli Məclisin hər zaman dövlət başçısının həyata keçirdiyi siyasəti dəstəklədiyini, cəmiyyətdə yeni siyasi proseslərin başlandığını bildirdilər. Qeyd olundu ki, deputatların bu təşəbbüsü ölkəmizin inkişafına, tərəqqisinə xidmət edəcək və növbədənkənar parlament seçkiləri ölkəyə yeni dinamizm verəcək.

Çıxışlardan sonra Milli Məclis Sədrinin müavini Bahar Muradova qərar layihəsini səsləndirdi. Qərar səsə qoyularaq qəbul edildi.

Bununla Milli Məclisin plenar iclası başa çatdı.

# Azərbaycanın Daxili İşlər naziri Türkiyə Baş Polis İdarəsi rəisinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb

Dekabrın 2-də Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov ölkəmizdə səfərdə olan Türkiyə Baş Polis İdarəsinin rəisi Mehmet Aktaşın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qonaqları salamlayan nazir Mehmet Aktaşı Türkiyə Baş Polis İdarəsinin rəisi vəzifəsinə təyin olunması münasibətilə təbrik edib, ona xidməti fəaliyyətində uğurlar arzulayıb.

İki qardaş ölkə arasındakı münasibətlərin dərin tarixi köklərə malik olduğunu məmnunluqla xatırladan general-polkovnik Vilayət Eyvazov müstəqilliyin bərpasından sonra Azərbaycan-Türkiyə əlaqələrinin hər zaman yüksələn xətlə inkişaf etdiyini, Ulu Öndər Heydər Əliyevin bu sahədəki misilsiz xidmətlərini, onun "Bir millət, iki dövlət" siyasətinin Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən uğurla həyata keçirildiyini vurğulayıb. Nazir dövlətlərimizin başçılarının siyasi iradəsi və qarşılıqlı səfərləri nəticəsində dost və qardaş ölkələrimiz arasındakı münasibətlərin dünyaya bir nümunə olduğunu, Mehmet Aktaşın bu səfərinin də ölkələrimizin Daxili İşlər nazirlikləri arasında əməkdaşlığın daha da genişlənəcəyinə xidmət edəcəyinə əminliyini bildirib.

Cəmiyyət həyatının bütün sahələrində olduğu kimi, təhlükəsizliyin də möhkəmləndirilməsinə və inkişaf etdirilməsinə xüsusi önəm verildiyini, bu gün Azərbaycan polisinin, daxili qoşunların peşəkar səviyyədə fəaliyyət göstərdiyini, ictimai asayişin qorunmasında, cinayətkarlıqla mübarizədə müsbət nəticələr qazanıldığını nəzərə çatdıran nazir V.Eyvazov bu sahədə Türkiyə Daxili İşlər Nazirliyinin, o cümlədən Baş Polis İdarəsinin və Jandarm Komandanlığının rolunu, xidmətlərini məmnunluqla xatırladıb. Nazir buna görə Mehmet Aktaşın şəxsində Türkiyə Daxili İşlər Nazirliyinin, o cümlədən Jandarm Qüvvələrinin rəhbərliyinə təşəkkür edib.

Daha sonra o, Daxili İşlər Nazirliyinin funksional vəzifələri və fəaliyyət istiqamətləri, mövcud kriminogen durum, həmçinin ölkəmizin son illərdəki sürətli inkişafını şərtləndirən əsas amillərdən olan dönməz ictimai-siyasi sabitliyin, əmin-amanlığın etibarlı şəkildə qorunması barədə məlumat verib.

Problemlərə toxunan Vilayət Eyvazov transmilli mütəşəkkil cinayətkarlığın əsas növlərindən olan narkotiklərin qanunsuz dövriyyəsi və qeyri-qanuni miqrasiya ilə mübarizənin ölkəmizdə də diqqət mərkəzində saxlanıldığını, qlobal xarakter almış terrorçuluğun bütün forma və təzahürlərinin tərəfimizdən də kəskin şəkildə qınandığını, belə təhlükələrə qarşı yalnız birgə səylərlə səmərəli mübarizənin aparılmasının mümkünlüyünü vurğulayıb.

Səmimi görüşə, xoş sözlərə və ətraflı məlumata görə təşəkkür edən Türkiyə Baş Polis İdarəsinin rəisi Mehmet Aktaş ölkəsinin Daxili İşlər naziri Süleyman Soylunun salamlarını general-polkovnik Vilayət Eyvazova çatdırıb. O, qardaş Azərbaycanın qısa müddətdə qürur duyulacaq səviyyədə möhtəşəm inkişaf yolu keçməsindən, əlaqələrimizin günbəgün genişlənməsindən məmnunluğunu ifadə edib. Qonaq deyib ki, dost və qardaş dövlətlərimiz dünyada və bölgədə sülhün və ədalətin bərqərar edilməsinə, əmin-amanlığa və ictimai təhlükəsizliyə ciddi təhdid olan qlobal problemlərə, o cümlədən mütəşəkkil cinayətkarlığın bütün təzahürlərinə qarşı hər zaman vahid mövqedən və birgə səylərlə çıxış edir.

M.Aktaş iki ölkənin müvafiq orqanları arasındakı faydalı işbirliyini yüksək qiymətləndirib, əlaqələrin inkişafı üçün bundan sonra da səylərini əsirgəməyəcəklərini, belə əməkdaşlığın, təcrübə mübadiləsinin xalqlarımızın və ölkələrimizin mənafelərinə xidmət etdiyini bildirib.

Dostluq və mehribanlıq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran digər məsələlər də müzakirə olunub.

Qəbulda Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral iştirak edib.

# Azərbaycan və Türkiyə arasında təhlükəsizlik sahəsində əməkdaşlıq ölkələrimizin milli mənafelərinin etibarlı qorunmasında mühüm amildir

Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-leytenant Əli Nağıyevin dəvəti ilə Türkiyə Respublikası Daxili İşlər Nazirliyi Təhlükəsizlik Baş İdarəsinin rəisi Mehmet Aktaşın rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfərə gəlib.



Dövlət Təhlükəsizliyi Xidmətinin İctimai əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, türkiyəli qonaqlar Fəxri xiyabana gələrək Ümummilli Lider Heydər Əliyevin məzarı önünə əklil qoyub, Ulu Öndərin əziz xatirəsini ehtiramla yad ediblər.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri düzülüb.

Qardaş ölkənin təmsilçiləri Şəhidlər xiyabanındakı "Əbədi məşəl" kompleksini və Türk şəhidliyini də ziyarət ediblər.

Sonra keçirilmiş ikitərəfli görüşdə general-leytenant Əli Nağıyev Mehmet Aktaşın Türkiyə Respublikası Daxili İşlər Nazirliyi Təhlükəsizlik Baş İdarəsinin rəisi kimi ilk xarici səfərini Azərbaycana etməsinin ölkələrimizin müvafiq strukturları arasında əməkdaşlıq əlaqələrinin yüksəlməsinə və daha da dərinləşməsinə müsbət təsir göstərəcəyinə əminliyini bildirib.

Xidmət rəisi Azərbaycanın müstəqilliyinin bərpasından sonra Ümummilli Lider Heydər Əliyevin əvəzsiz xidmətləri sayəsində Türkiyə ilə əlaqələrin sürətlə inkişaf etdiyini diqqətə çatdırıb, dahi şəxsiyyətin "Bir millət, iki dövlət" siyasətinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən müvəffəqiyyətlə davam etdirildiyini, dövlət başçılarının siyasi iradəsi və qarşılıqlı səfərləri nəticəsində dost və qardaş ölkələrimiz arasındakı münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu məmnunluqla xatırladıb.

General-leytenant Əli Nağıyev beynəlxalq terrorçu təşkilatlarla sıx əlaqələri olan mütəşəkkil transmilli cinayətkar qrupların respublikamızın hüquq mühafizə orqanlarının birgə səyləri nəticəsində zərərsizləşdirilməsi istiqamətində həyata keçirilən tədbirləri, eləcə də antiterror koalisiyasının fəal üzvlərindən biri kimi Azərbaycanın dönməz və ardıcıl mövqeyini qeyd edib. Eyni zamanda, mövcud əməliyyat şəraiti, ona təsir göstərən amillər, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və nəzarət olunmayan ərazilərin doğurduğu fəsadlar, ekstremizm, qanunsuz miqrasiya, narkotrafik və digər məsələlər, habelə bununla əlaqədar görülən adekvat tədbirlər barədə geniş məlumat verib. Xidmət rəisi Azərbaycanın və Türkiyənin müvafiq qurumları arasında informasiya və təcrübə mübadiləsinin, ümumən təhlükəsizlik sahəsində əməkdaşlığın yüksələn xətlə inkişafının ölkələrimizin milli mənafelərinin etibarlı qorunmasında mühüm amil olduğunu vurğulayıb.

Qonaqpərvərliyə və ətraflı məlumata görə təşəkkürünü çatdıran Mehmet Aktaş qardaş Azərbaycana səfərindən xoş təəssürat aldığını qeyd edib. O, bu cür görüşlərin transmilli cinayətkarlıqla mübarizə işində və hər iki dövlətin müvafiq strukturları arasında əməkdaşlıq əlaqələrinin inkişaf perspektivlərinin müəyyənləşdirilməsində xüsusi əhəmiyyət daşıdığını söyləyib. Türkiyəli qonaq öz ölkəsi tərəfindən beynəlxalq terrorçuluq, ekstremizm və mütəşəkkil cinayətkarlığın müxtəlif növləri ilə mübarizə üzrə görülən işlərə dair məlumat verib. O, ölkələrimizin müvafiq qurumları arasındakı faydalı işbirliyini yüksək qiymətləndirib, tərəfdaşlıq əlaqələrinin inkişafı üçün bundan sonra da səylərini əsirgəməyəcəklərini, belə əməkdaşlığın, təcrübə mübadiləsinin xalqlarımızın və dövlətlərimizin maraqlarına xidmət etdiyini vurğulayıb.

Görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə olunub.

# "İlin peşəkar gənci" müsabiqəsinin qalibləri mükafatlandırılıb

Dekabrın 2-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) tərəfindən təşkil olunmuş "İlin peşəkar gənci" müsabiqəsinin qaliblərinin mükafatlandırılması ilə əlaqədar tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə AHİK-in sədri Səttar Möhbalıyev çıxış edərək gənclərimizin sağlam, savadlı böyümələrinin, onların peşəkarlıq səviyyəsinin artırılmasının, layiqli vətəndaş kimi yetişmələrinin Azərbaycanda həyata keçirilən dövlət gənclər siyasətinin əsas istiqamətlərindən biri olduğunu diqqətə çatdırıb. S.Möhbalıyev müstəqil ölkəmizdə dövlətin gənclər siyasətinin əsasının Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulduğunu və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb. O, bu istiqamətdə qəbul edilmiş inkişaf strategiyalarının və dövlət proqramlarının gənclərin inkişafına yönəldildiyini vurğulayıb.

AHİK-in də dövlətin gənclər siyasətinin uğurla həyata keçirilməsinə töhfə verməyə çalışdığını vurğulayan S.Möhbalıyev deyib: "Bu gün Azərbaycan gəncləri yeni, müasir və müstəqil ölkənin qurulmasında fəal iştirak edirlər. Gələcəyimizin etibarlı təminatı peşəkar kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır. Hazırda respublikadakı həmkarlar ittifaqı üzvlərinin üçdə biri 35 yaşınadək olan gənclərdir. Belə bir qüvvənin təşkilatın işində yaxından iştirakı vacib məsələlərdən biridir. Həmkarlar ittifaqları mövcud struktur çərçivəsində gənclərin fəallığını təmin etməyə, rəhbər orqanlarda təmsil olunmalarına şərait yaratmağa, işləyən və təhsil alan gənclərin hüquq və mənafelərinin qorunmasına çalışırlar. Gənclərin məşğulluğu, onların sağlam həyat tərzi keçirmələri, asudə vaxtlarının təşkili və sair məsələlər ön plana çəkilir, müntəzəm olaraq elmi-praktiki konfranslar, seminarlar təşkil edilir".

Onun sözlərinə görə, AHİK üzv təşkilatlarla birlikdə daim gənclərin fəallığını təmin etməyə, işləyən və təhsil alan gənclərin hüquq və mənafelərinin qorunmasına çalışır, dövlətin gənclər siyasətinə uyğun olaraq müvafiq tədbirlər həyata keçirir. "İlin peşəkar gənci" müsabiqəsinin təşkili gənclərimizin asudə vaxtının səmərəli təşkili, onlarda elmə, təhsilə marağın artırılması, sağlam həyat tərzinin təbliğinə xidmət edir. Bildirib ki, son iki ildə 107 gənc AHİK-in qərarı ilə "İlin peşəkar gənci" fəxri adına layiq görülüb. Bu gün ötən ilin nəticələrinə görə "İlin peşəkar gənci" fəxri adına 56 nəfər istedadlı gənc layiq görülüb ki, onların 38 nəfəri kişi, 18 nəfəri isə qadındır.

Dövlətin gənclərə göstərdiyi münasibətin həmin dövlətin gələcəyinə münasibət olduğunu vurğulayan AHİK-in sədri tələbələrin sosial problemlərinin həlli istiqamətində müəyyən addımlar atıldığını diqqətə çatdıraraq bildirib ki, 120 tələbəyə aylıq təqaüdlərin verilməsi təmin olunub.

Sonra müsabiqə qaliblərinin mükafatlandırılması mərasimi olub. Qaliblərə fəxri fərmanlar və qiymətli hədiyyələr təqdim edilib.

## İlham Əliyevin islahatlar konsepsiyası yeni keyfiyyət mərhələsinə qədəm qoyur

# Siyasi tariximizdə mütərəqqi ilk

*Əvvəli 1-ci səh.*

Müstəqilliyimizin ilk illərində, onillər sonranı düşünmək nədir, bu gündən sabaha ümidimizin kəsildiyi vaxtlar vardı. O zamanlar ağır təlatümlər içində, hər tərəfdən qəlbimizi sıxan saysız-hesabsız çətinliklərin məngənəsində cəmi beş-altı il sonranın müstəqil Azərbaycanı çoxumuza xəyal kimi görünürdü, bunu da etiraf edək.

Ümummilli Lider Heydər Əliyevin varlığı, 1993-cü ildə dövlət rəhbərliyinə gəlişi, bu böyük dövlət adamının millətin önünə düşməsi can evimizdə günəş boyda ümid çırağı yandırdı.

Heydər Əliyev Azərbaycanın yönünü müəyyənləşdirdi, istiqamətini nişan verdi. Bu minvalla, gələcəyə doğru uzun, incə bir yolumuz yavaş-yavaş zülmətdən, sərt dolanbaclardan aydınlığa çıxmağa başladı...

❖❖❖

Günlərdən 2017-ci ilin 14 sentyabr günü...

"Əsrin müqaviləsi"nin müddəti 2050-ci ilə qədər uzadılır.

İmzalanma mərasimini əks etdirən görüntülər ən yeni tariximizin əlamətdar mənzərəsini yaradır, mənsə o görüntüləri izləyə-izləyə belə bir həqiqətin məmnunluğunu bütün ruhumla duyuram ki, Heydər Əliyevin nişan verdiyi istiqamətlə çox böyük bir yol gəlib arzusunda olduğumuz mərhələyə, nəhayət gəlib çata bilmişik. Şükürlər olsun!

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev xalqı, dövləti xəyallarımızın ünvanına, ümidlərimizin çiçəkləndiyi çağa yetirib. İndi elə bir dönəmdəyik ki, bu çağda verilən qərarların əhatə dairəsi günləri, ayları, illəri deyil, onilliklər, yarım əsrlər, əsrlər sonranı ehtiva edir.

2050-ci il...

Sabah, biri gün, daha biri gün, bir ay, bir il sonra yox, bu sətirlərin yazıldığı zamandan baxsaq, düz 31 ildən də o tərəfi...

Deməli, 2050-ci ildə də, ondan sonrakı onilliklər, əsrlər ərzində də müstəqil Azərbaycan dövləti var olacaq, dünyada səsimiz, ünümüz daha yüksəkdən eşidiləcək, ölkəmiz yeni başlanğıclara, yeni inkişafa, yeni nailiyyətlərə imza atacaq.

Cənab İlham Əliyevin təməlini qoyduğu bütün qlobal mahiyyətli layihələr, atdığı addımlar, yaxın perspektivlə yanaşı, uzaq gələcəyin də müjdəsidir, əslində. 2050-ci il rəqəmi isə düşüncələrimdə ona görə boy göstərir ki, bu yuvarlaq tarixdə Azərbaycanın güvənli sabahı ilə bağlı ümidlərimizin artıq faktlaşdığını, konkret rəqəmlərlə ifadə olunduğunu görürəm.

Ən önəmlisi isə bu, bizim arzu və ümidlərimiz qədər həm də dünyanın böyük güclərinin, hər qərarını əvvəlcədən azı min dəfə ölçüb-biçən ehtiyatlı xarici sərmayədarların ölkəmizin gələcəyi ilə bağlı xatircəmliyidir, əminliyidir.

Müstəqil dövlətimizi bu reallıqlar dövrünə Ulu Öndər Heydər Əliyevin, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çevik qərarları, həyata keçirdikləri davamlı islahatlar, bu islahatların effektiv nəticələri yetirib.

❖❖❖

Qlobal dünyanın bir hissəsi kimi Azərbaycan da indi zamanla yarışır. Zamansa çox sürətlənib.

Elə bir əyyamda yaşayırıq ki, dünyanın gözlərimiz önündə necə dəyişdiyini, az qala, saatbasaat hiss etmək olur. Tarixin bütün dövrlərində olduğu kimi bu dövrün də qalibləri, zamanın sürəti ilə ayaqlaşa bilənlər, vaxtla birgə yenilənməyi bacaranlar, ilk baxışdan çətinlik kimi görünənləri yeni inkişaf imkanlarına çevirə bilənlər olacaq.

Azərbaycan Prezidentinin apardığı köklü islahatların əsas məqsədləri də budur. Qeyd etdiyim kimi, qarşıda əhatə dairəsi əsrlərlə ölçüləsi böyük dövlətçilik hədəfləri var. Bu hədəflərə çatmaqdan ötrü vaxtın diktəsinə uyğun mühit formalaşdırılmalıdır, ənənələr yaradılmalıdır, davamlı inkişaf proseslərini hər zaman təmin edə biləcək əsaslar möhkəmləndirilməlidir.

Bütün bunlar isə ancaq sistem islahatları sayəsində mümkün ola bilər. Cənab İlham Əliyev də bu gün Azərbaycanda məhz sistem islahatları aparır. Bu islahatların məqsədi elə bir sistem qurmaqdır ki, burada dövlətin bütün qollarına aid strukturlar saat mexanizmi kimi bir-birini hərəkətə gətirsin, biri digərini yubatmasın, hərəkətinə əngəl törətməsin, biri o birini tamamlasın. İş tempi, sürəti bir-birinə tən gəlsin. Yoxsa ümumi sistemin bir hissəsində islahatlar aparıb, digərini diqqətdən kənarda qoymaqla mexanizmin effektiv fəaliyyəti, nəticə yönümlü işi alınmaz.

Yeni Azərbaycan Partiyasının deputat korpusunun V çağırış Milli Məclisin buraxılaraq qanunverici orqanının tərkibinin yenidən formalaşdırılması ilə bağlı parlamentə müraciəti də islahatların kompleks mahiyyətindən, konseptual məzmunundan irəli gəlir.

Və partiyadaşım olan deputat həmkarlarımla birgə biz belə bir qərarı zəruri saydıq.

❖❖❖

Hakim partiyanın bu qərarı, ilk növbədə, ölkəmizin bu günü və gələcəyi ilə bağlı Yeni Azərbaycan Partiyasındakı yekdil mövqeyin, apardığı inkişaf siyasətində Azərbaycan Respublikasının Prezidentinə dəstək əzminin nümunəsi kimi rəğbət doğurur. İyirmi-otuz nəfərlik üzv arasında hansısa məsələdə vahid fikrə gələ bilməyib, bir neçə yerə parçalanan firqələri çox görmüşük. Yeni Azərbaycan Partiyasının uğur sirri isə bundadır ki, Ulu Öndər Heydər Əliyevin təbirincə desək, dünənin, bu günün və gələcəyin partiyasının bütün qərarları xırda şəxsi maraqlara deyil, ümumdövlət mənafeyinə əsaslanır. Çoxluğun istəklərini, cəmiyyətin sosial sifarişlərini əks etdirir.

Yeni Azərbaycan Partiyasının yüz minlərlə üzvü, daha geniş götürsək, ümumən Azərbaycan vətəndaşları Prezidentin hakimiyyətin icraedici qolunda apardığı islahatların necə müsbət mənzərə yaratdığını görürlər.

Məhz bu islahatlar sayəsində Azərbaycan iqtisadiyyatının bütün sahələrində, xüsusən də qeyri-neft sektorunda böyük canlanma yaranıb. Ölkədə biznes mühiti yaxşılaşıb. Şəffaflıq, azad rəqabət şəraiti təmin edilib. Uzun müddət vətəndaşların haqlı narazılığına səbəb olan bir çox problemlər yoluna qoyulub və qoyulur. Bütün bunlar beynəlxalq ekspertlər tərəfindən də yüksək dəyərləndirilir, həmçinin nüfuzlu qlobal hesabatlarda, reytinq cədvəllərində Azərbaycanın ildən-ilə yaxşılaşan mövqeyində ifadə olunur.

Prezidentin islahatlar konsepsiyasının icrasını həyata keçirən hökumətin tərkibinin daha da təkmilləşdirilməsi, eyni zamanda, dövlət aparatında aparılan köklü dəyişikliklər bu xüsusda mühüm əhəmiyyət kəsb edir. Prezident təşəbbüskarlığı, çevikliyi, səmərəliliyi, şəffaflığı, məsuliyyəti, vətəndaşa həssas münasibəti öz məmurları qarşısında əsas tələblər kimi qoyur.

Prezident yeni islahatlar kursunun icrasını təcrübəli mütəxəssislərə, gənclərdən ibarət peşəkarlar komandasına həvalə edir. İcraedici hakimiyyət strukturlarının rəhbərliyinə cavan, enerjili, müasir inkişaf trendlərinə bələd, peşəkar menecment biliklərinə malik kadrlar gətirilir. Prezident İlham Əliyevin qarşıya qoyduğu vəzifələrə uyğun olaraq onlar öz fəaliyyət sahələri üzrə cəmiyyət üçün çox faydalı layihələr yerinə yetirirlər.

❖❖❖

Bu prosesin davamı olaraq dövlət rəhbərimiz Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında da struktur dəyişiklikləri apardı. Bu qurumu dövrün reallıqlarına uyğunlaşdırdı. Administrasiyanın strukturunu optimallaşdırdı, onun daha effektiv çalışmasından ötrü zəruri təshihlərini etdi, əvvəlki kadr heyətinin böyük hissəsinə yenidən etimad göstərməklə yanaşı, bu quruma indiyə qədər müxtəlif sahələrdə çalışaraq özünü doğrultmuş təcrübəli kadrlar da cəlb etdi.

İcraedici hakimiyyətdə aparılan islahatlar bu sistemdə köklü yeniliklərə vəsilə olur, inkişafa təkan verir, dövlətin mövcudluq və müstəqilliyin davamlılıq şərtlərini təmin edən inzibati amilləri gücləndirir. İlham Əliyev yeni hədəflərə daha modern və səmərəli idarəçilik modeli ilə addımlayır.

❖❖❖

İstənilən islahatın, yenilik qərarının ən mühüm nəticəsi onun sadə insanların həyatında yaratdığı müsbət dəyişikliklərdir. Azərbaycan vətəndaşları da Prezidentin həyata keçirdiyi islahatları ona görə dəstəkləyirlər ki, bu dəyişikliklərin xoş təsirlərini gündəlik güzəranlarında duya bilirlər.

Əgər indi vətəndaş hər hansı problemi, qayğıları ilə bağlı sözünün, ərz-halının dövlət qurumlarında daha həssaslıqla dinlənildiyini, müşküllərinə əncam çəkildiyini görürsə, hər hansı çətinliklə üzləşdiyi an dövləti yanında hiss edirsə, həyata keçirilən infrastruktur layihələrindən, sosial proqramlardan faydalanırsa, bu islahatlara təbii ki, dəstək verəcək və müsbət dəyişikliklərin davamlı olmasını arzulayacaq.

Bu gün ölkəmizdə müxtəlif istiqamətlər üzrə həyata keçirilən islahatların öz məqsədinə çatmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın fədakar əməyi var.

Ötən əsrin 90-cı illərinin ortalarından ictimai missiyası ilə cəmiyyətimizin yüksək rəğbətini qazanmış Mehriban xanım Əliyeva xüsusilə 2004-cü ildən rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti ilə yüksək təşkilatçılığın, nəticəyönümlü işin, insanlara və insanlığa xidmətin parlaq nümunəsini formalaşdırdı. Saleh əməlləri Azərbaycan insanının qəlbində sevgi, xeyirxahlıq, mərhəmət abidəsi ucaltmış Mehriban xanıma daha geniş fəaliyyət imkanının yaradılması, onun mükəmməl təşkilatçılıq, menecerlik bacarıqlarından daha geniş əhatədə istifadə edilməsi ümumxalq arzusu idi.

Bütün qərarlarında toplumun arzularını əks etdirən dövlət rəhbərimiz isə insanların bu istəyini də yerinə yetirdi. Mehriban xanım Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin edildi. Dövlətə, xalqa layiqli xidməti ilə insanların ona olan inamını, Prezidentin yüksək etimadını növbəti dəfə doğrultdu. Ölkədə sosial sahədə aparılan islahatlar birmənalı olaraq məhz Mehriban Əliyevanın fəal icraçılığı, novator təşəbbüskarlığı ilə reallaşdırılır. Amma Birinci vitse-prezidentin fəaliyyət hüdudları şübhəsiz ki, təkcə bu sahə ilə məhdudlaşmır və o, Prezidentin ardıcıl islahatlar kursuna digər sahələrdə də dəstək verir. Onun ictimai obrazı, insanların Mehriban xanım Əliyeva şəxsiyyətinə olan yüksək rəğbəti aparılan islahatların məqsədi, məramı, gözlənilən nəticələri haqqında daha aydın təsəvvür formalaşdırır və atılan addımlara inamı artırır.

❖❖❖

Şübhəsiz ki, islahatların cəmiyyətin bütün sahələrini əhatə edə bilməsindən ötrü onun hakimiyyətin digər əsas qollarından olan qanunverici hakimiyyətdə də getməsi vacibdir. Azərbaycan parlamentinin yenilənməsi, müasirləşməsi, islahatlar sferasına cəlb olunması Prezidentin islahatlar konsepsiyasının uğurla həyata keçirilməsinə əlavə təminatdır.

Bununla Azərbaycanın bütün həyatını, hakimiyyətin bütün sferalarını əhatə edən yeniləşmə, müasirləşmə, islahatlar konsepsiyasının əhatə dairəsi daha da genişlənir və bu zəmində ölkəmizin daha sürətli inkişafı üçün daha əlverişli, daha etibarlı imkanlar əldə olunur, həmin imkanlardan faydalanmaq üçün şərait yaranır.

İnkişafın Azərbaycan modelinin əsas xüsusiyyəti də elə budur ki, ölkəmizdə sosial-iqtisadi inkişaf prosesləri hər zaman hüquqi-siyasi təkmilləşmə işinə və demokratikləşməyə paralel aparılıb. Bu iki istiqamət heç vaxt bir-biri ilə ziddiyyətə girməyib. Əksinə, bir-birini tamamlayıb, bir-birinə yol açıb. Biri digəri üçün mühit formalaşdırıb.

Bu, sağlam inkişafın başlıca qanunauyğunluğudur. Yeni dünyaya gəlmiş normal bir körpənin bədən üzvləri, ağlı, şüuru, təfəkkürü, nitqi bərabər inkişaf etdiyi kimi, canlı orqanizmə çox bənzəyən cəmiyyətdə də inkişaf prosesləri bir-birini tamamlamalıdır. İqtisadi yüksəlişi olmayan, insanları ac-yalavac qılınca çapan cəmiyyətdən demokratik meyarlar uma bilməzsən. Demokratiya haqqında moizələrin övladı evdə aclıqdan ağlayan valideynə əsla çatmaz. Bir ata sözümüzdə deyildiyi kimi, "Aca Quran oxumaq haramdır". Amma mükəmməl hüquqi-siyasi prinsiplərin sabitləşmədiyi dövlətlərdə də əsaslı sosial-iqtisadi nailiyyətlər mümkün olmaz. Belə şəraitdə nə qədər nailiyyət qazanırsan, qazan, anidən yaranan xaos, anarxiya mühiti bir anda hamısını dağıdıb yerlə-yeksan edəcək. Ona görə də yalnız hüquqi dövlət institutlarını inkişaf etdirən, demokratik dəyərlərə xitab edən, şəffaf seçki prosesini davamlı olaraq təkmilləşdirən dövlət dayanıqlı sosial-iqtisadi inkişafa zəmin yarada bilər.

Və Azərbaycan illərdir ki, bunu bacarır, bacarıb və yenə də bacaracaq.

❖❖❖

Müstəqil Azərbaycan Respublikasında indiyə qədər Milli Məclisə V çağırış seçki olub. Parlamentin hər çağırış üzrə yenilənən tərkibi öz dövrü üçün böyük işlərə imza atıb. Ölkəmizin demokratik inkişafında, hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu işlərində, təkmil qanunvericilik bazasının formalaşdırılmasında mühüm işlər görüb.

İndi isə dövrün reallıqları, yenilənmə meyilləri, ölkəmizin bu günü və gələcəyi ilə bağlı taleyüklü qərarların verilməsi Milli Məclisin də xalqdan yeni etimad mandatı almasını zəruri edir. Qeydlərimin əvvəlində də qələmə aldığım kimi, bu gün üzərində işlənən layihələr, proqramlar üç günlük, beş günlük müddət üçün deyil, böyük strateji dövrlər üçün nəzərdə tutulur. Onların əksəriyyəti qarşıdakı onillikləri hədəf götürür. Azərbaycanın gələcəyi üçün bu qədər mühüm, strateji qərarları səlahiyyət müddətinin başa çatmasına cəmi bir il qalmış Milli Məclisin verməsi hüquqi baxımdan tam doğru olsa da, mənəvi baxımdan bir qədər tərəddüd yaradır. Azərbaycan vətəndaşı mövcud Milli Məclisin tərkibini tamam başqa reallıqlar dövründə seçib. Bu tərkibdən gözləntiləri də başqa olub. 2015-ci ildə keçirilmiş seçkilərdən sonra ölkədə köklü dəyişikliklər baş verib. Xüsusilə 2017-ci il referendumundan sonra Azərbaycanın həyatında böyük yenilənmə olub. Belə bir şəraitdə daha ədalətli olar ki, ölkə vətəndaşına qanunverici orqanın tərkibinə də yeni reallıqlar prizmasından baxmaq üçün imkan tanıyasan.

❖❖❖

Seçkilərin müddətinin təxminən 9 ay əvvələ çəkilməsi yeni islahatlar kursunun vacib proqramlarının icrasını tez bir zamanda başlamaq üçün parlamentin xalqdan yeni etimad mandatı alması məqsədi daşıyır. Nəticə etibarilə, yeni parlament islahatların gedişinin daha da sürətlənməsinə və onun qanunvericilik bazasının təkmilləşməsinə kömək göstərəcək.

Digər tərəfdən, düşünürəm ki, bununla vətəndaşlara da islahatları kənardan seyr etmədən öz səsləri ilə bu prosesdə bilavasitə iştirak imkanı yaradılır.

VI çağırış Milli Məclisə seçkilərin tarixi yaxın vaxtlarda bəlli olacaq. Azərbaycan insanı münasib bildiyi, ölkəmizin, cəmiyyətimizin inkişafından ötrü daha adekvat saydığı, bir sözlə, parlamentdə onu təmsil etməkdən ötrü ən layiqli namizədə etimad göstərməklə Azərbaycan Prezidentinin islahatlar kursuna öz töhfəsini verə bilər.

Çeviklik, zəruri qərarların yubanmadan verilməsi və onların icrasına başlanması, eyni zamanda hesabatlılıq bir lider kimi cənab İlham Əliyevin əsas xüsusiyyətlərindəndir. Yeni iqtisadi-siyasi situasiya islahatların daha geniş əhatədə həyata keçirilməsi ilə yanaşı, həm də vacib qərarların yalnız icraedici orqan miqyasında deyil, həm də qanunverici hakimiyyət səviyyəsində də müasir meyarlarla operativ qəbulunu tələb edir. Əlbəttə, əsas söz yenə də seçicinindir və Milli Məclisin yeni tərkibinin kimlərdən ibarət olmasını yenə də əlahəzrət seçici müəyyənləşdirəcək. Amma Milli Məclisin deputatı kimi yox, şəxsən sıravi bir seçici kimi, mənə görə parlamentin yeni tərkibində, zəngin parlamentarizm təcrübəsinə, qanunvericilik sahəsində səriştəyə malik şəxslərlə yanaşı, müasir dünyanın sosial-iqtisadi inkişaf trendlərini yaxşı bilən, təşəbbüskar, verilən qərarların məzmununu cəmiyyətə sadə və aydın şəkildə doğru-dürüst izah etməyi bacaran, insanlarla yüksək kommunikasiya mühitində çalışmaq imkanlarına malik üzvlər də olmalıdır.



Belə bir parlament aparılan islahatlara, baş verən əsaslı yeniliklərə ümumxalq etimadını daha da gücləndirəcək, cəmiyyətdə hüquqi maarifləndirmə işlərini genişləndirəcək, sivil inkişafın cövhəri olan təfəkkür dəyişikliyinə də rəvac verəcək.

Yeniliyə, müasirliyə, ölkənin, cəmiyyətin ruhunun daim təzələnməsini özünə ad seçən, amal kimi müəyyənləşdirən bir partiyanın ən böyük istəyi də elə bu deyilmi?!

❖❖❖

Yeni Azərbaycan Partiyasına bu adı partiyamızın qurucusu, Ulu Öndərimiz Heydər Əliyev qoyub. Partiya da hər zaman adını doğrultmağa, yaradıcılarının, ümumən cəmiyyətimizin onun varlığına, fəaliyyətinə olan ümidlərini doğrultmağa çalışıb. Yeni Azərbaycan Partiyası inkişaf proseslərində bir novatordur. Bu partiya Azərbaycanının siyasi tarixindəki bir çox mütərəqqi yeniliklərin müəllifidir.

Əslində, partiya funksionerlərimizin də qeyd etdikləri kimi, ötən əsrin 90-cı illərinin əvvəllərindəki siyasi xaos, hərki-hərkilik, qaragüruhun söz sahibi olduğu mühitdə, cəmiyyətin taleyinə görə narahatlıq hissi keçirən, ölkənin və xalqın gələcəyini düşünən ziyalılarımızın fəal iştirakı ilə 27 il əvvəl belə bir partiyanın yaradılması ən mühüm yeniliklərdən idi.

27 il bir igidin ömrüdür. Böyük tarixdir. Ən önəmlisi isə Yeni Azərbaycan Partiyasının öz fəaliyyəti ilə yaratdığı bu 27 illik tarix Azərbaycanın müstəqillik tarixinin şərəfli parçasıdır.

Partiyamızın sıralarında indi yüz minlərlə insan var. Onlar arasında cəmiyyət həyatının bütün qütblərini təmsil edən insanlara təsadüf etmək olar. Amma kimliyindən, hansı sahədə çalışmasından, təhsil səviyyəsindən asılı olmayaraq Yeni Azərbaycan Partiyası yarandığı ilk günlərdən olduğu kimi yenə də ziyalıların, xalqın gələcəyini düşünən insanların partiyası olaraq qalır, inkişaf edir və özü ilə birgə cəmiyyətin də inkişafına töhfə verir. Kimliyindən asılı olmayaraq bütün partiyadaşlarımızı dövlətçilik idealları, azərbaycançılıq düşüncəsi, müstəqilliyimizin daimiliyi, əbədiliyi qayəsi birləşdirir.

Ona görə də partiyamız öz taleyüklü qərarları, yeni, orijinal yanaşmaları, gələcəyə baxışları, təşkilati ənənələri ilə həmişə fərqlənib.

V çağırış Milli Məclisin buraxılması barədə müraciəti də Yeni Azərbaycan Partiyasının ölkəmizin parlamentarizm tarixinə gətirdiyi daha bir maraqlı yenilik oldu.

Əslində, parlamentlərin buraxılması, yenidən seçilməsi başqa ölkələrin həyatında yeni bir hal deyil. Yaxın-uzaq ölkələrdə buna dəfələrlə şahid olmuşuq. Az qala iki-üç ildən bir növbədənkənar parlament seçkiləri keçirilir. Görürsən ki, parlament seçkisi keçirildi, bir neçə iclasdan sonra hansısa məsələlərdə fikir ayrılıqları yarandı, yaxud dövlətdə ikitirəliklər, siyasi təlatümlər başlandı və ölkə rəhbərliyi parlamenti buraxıb yenidən seçki təyin etmək qərarına gəldi. Hamı da bunu adi, sıradan təcrübə kimi qəbul edir və belə qərarlarda qeyri-adi nəsə axtarmır.

Bizdə də necə deyərlər, stəkanda fırtına qoparmağa gərək yoxdur.

Ölkəmizdə növbədənkənar parlament seçkisi siyasi tariximiz üçün mütərəqqi ilk olacaq. Amma bunu təkcə Azərbaycanın deyil, dünyanın yeni siyasi tarixindəki ilklərdən də saymaq olar. İlk dəfədir ki, hansısa ölkədə siyasi xaosun, gərginliklərin, fikir ayrılıqlarının, qarşıdurmaların deyil, məhz dinamik inkişafın diktəsi ilə parlamentin buraxılmasına qərar verilir, hakimiyyət qollarında aparılan islahatların uzlaşdırılması, proseslərin paralelliyinin təmin olunması üçün çoxluq parlamentin yenidən formalaşdırılmasını zəruri sayır. Bununla ölkənin inkişafına, dövlətçilik institutlarının möhkəmlənməsinə, effektiv fəaliyyətinə zəmin yaradır. Ölkənin hər bir vətəndaşına islahatlar prosesində öz səsi ilə şəxsən iştirak imkanı verir.

❖❖❖

Yeni Azərbaycan Partiyası cəmiyyətimizdə sivil seçki ənənələrinin yaradıcısıdır, həm də... Milli Məclisin buraxılması barədə müraciəti isə partiyamızın həm də seçkiyə hazırlıq qərarı saymaq olar. Yeni Azərbaycan Partiyası uzun illər ərzində ölkəmizdə keçirilən bütün seçkilərin alternativsiz qalibi olub.

Partiyamız VI çağırış Milli Məclisə seçkilərə də böyük ruh yüksəkliyi, qələbəsinə şəksiz inam, zəfər əzmi ilə gedir. Bu, partiyanın qurucusu, Ulu Öndər Heydər Əliyevin Yeni Azərbaycan Partiyası qarşısında müəyyən etdiyi dövlətçilik yolunun yaratdığı əminlikdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkəmizə qazandırdığı tarixi nailiyyətlərin xatircəmliyidir. Aparılan davamlı islahatlara Azərbaycan vətəndaşlarının verdiyi dəstəkdir.

Adətən partiyalar, namizədlər seçkilərə platformalar, proqramlar, seçicilər qarşısında vədlərlə gedirlər. Yeni Azərbaycan Partiyasının hər bir namizədinin seçki platfoması, proqramı, vədləri bu gün cənab İlham Əliyevin ölkəmizin gələcəyi, vətəndaşlarımızın rifahı üçün gördüyü işlərdir. Bu işlərlə ortaya qoyulan nəticələrdir. Cəmiyyət Yeni Azərbaycan Partiyasının və partiyamızın dəstəklədiyi bitərəf namizədlərin simasında bu siyasətə, bu işlərə, bu nəticələrə dəstək verəcək.

Cəmiyyət ən layiq olanları seçəcək.

Azərbaycan seçicisi tarixiliklə müasirliyin, ənənə və novatorluğun, yaşlıların müdrikliyi ilə gənclərin enerjisinin vəhdətinə səs verəcək.

Yaşından asılı olmayaraq cəmiyyət üçün fayda verən, ölkənin davamlı inkişafına töhfələr gətirən hər bir layiqli namizəd Milli Məclisə xalqdan mandat qazanacaq.

**Beləliklə, növbədənkənar parlament seçkiləri Azərbaycanın milli dövlətçilik tarixində yeni bir başlanğıca çevriləcək.**

**Vətənə, millətə xeyirli-uğurlu olsun.**

***Hüseynbala MİRƏLƏMOV,***
***Milli Məclisin deputatı,***
***YAP Xətai rayon***
***təşkilatının sədri***

# YAP-ın təşəbbüsü təqdir edilir

## Müxalifət partiyaları hesab edirlər ki, növbədənkənar parlament seçkiləri Milli Məclisin fəaliyyətinə yeni dinamizm verəcək

*Əvvəli 1-ci səh.*

### "Dünyanın hər yerində parlament çoxluğu zəruri hesab edirsə, yeni seçkilər təyin edilir"

**Milli Məclisin deputatı, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Qüdrət Həsənquliyev** YAP-ın qərarını dəstəklədiyini bildirir: "Əvvəllər də söyləmişdik ki, əgər hakim partiya növbədənkənar seçkilərə getsə, biz onu dəstəkləyəcəyik. Çalışmalıyıq ki, Milli Məclis hakimiyyətin müstəqil qanadı kimi ölkəmizdə hüquqi dövlət quruculuğu prosesinə öz töhfəsini versin".

Deputatın sözlərinə görə, Konstitusiyada parlamentin özünü buraxma proseduru nəzərdə tutulmasa da, bu, qadağan da olunmur və oluna da bilməz. Dünyanın hər yerində parlament çoxluğu zəruri hesab edirsə, yeni seçkilər təyin edilir. Hazırda Böyük Britaniyada da nəvbədənkənar seçkilər keçirilir: "Bu parlamentdən gözləntilər o deyil ki, kimi kimsə əvəz etsin. Parlamentə fərqli fikir daşıyıcıları o sayda daxil olmalıdır ki, çoxpartiyalı sistem əsasında fəaliyyət göstərə bilsin, ideyaların və düşüncələrin dartışıldığı bir auditoriyaya çevrilsin.

Prezident İlham Əliyev bu günə qədərki fəaliyyəti ilə islahatların bazasını yaradıb. Biz yeni inkişaf dövrünə qədəm qoymuşuq".

### Ali qanunverici orqan da islahatların sürətlənməsinə öz töhfəsini verməlidir

**Milli Məclisin deputatı, Vətəndaş Həmrəyliyi Partiyasının təmsilçisi Fəzail İbrahimli** bizimlə söhbətində qeyd etdi ki, son illərdə Prezident İlham Əliyevin islahatlar konsepsiyası çox mükəmməl hazırlanb və islahatlar həyata keçirilərkən hər kəs tərəfindən təqdir edilir: "Cənab Prezidentin struktur islahatları dövlətin ayrı-ayrı qurumlarının daha çevik işləməsinə xidmət edir. Hesab edirəm ki, Yeni Azərbaycan Partiyasının irəli sürdüyü təşəbbüs də buna xidmət edir. Ali qanunverici orqan da islahatların sürətlənməsinə öz töhfəsini verməlidir".

Fəzail İbrahimlinin özünün yenidən növbədənkənar seçkilərə qatılıb-qatılmayacağına gəlincə isə, deputat dedi ki, xalqdan mandat almaq üçün namizədliyini irəli sürəcək.

### Parlamentin yenilənməsi sosial sifarişdir

"Prezident İlham Əliyevin islahatları qanunverici hakimiyyətdən də yan keçmir. Ona görə də parlamentin yenilənməsinə ehtiyac var. Bu, həm də sosial sifarişdir".

**Bu fikri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı, Vəhdət Partiyasının sədri Tahir Kərimli** söylədi. Yeni Azərbaycan Partiyasının təşəbbüsünü dəstəkləyən deputat deyir ki, burada söhbət hakimiyyətin bütün sferalarını əhatə edən yeniləşmədən, müasirləşmədən, islahatlar konsepsiyasının coğrafiyasının genişləndirilməsindən və bunun zəminində Azərbaycanın daha dinamik inkişafı üçün daha əlverişli, etibarlı imkanların əldə olunmasından gedir: "Cəmiyyət də istəyir ki, parlament yenilənsin və Milli Məclisə yeni ab-hava gəlsin. Ümidvaram ki, gələcəkdə daha güclü qanunverici orqan formalaşacaq. YAP-ın qərarını təqdir edirəm". Tahir Kərimlinin fikrincə, növbədənkənar seçkilər həm ölkədəki ictimai-siyasi proseslərə, həm də parlamentin fəaliyyətinə yeni dinamizm verəcək.

Deputat növbədənkənar seçkilərdə iştirak edəcəyini də söylədi.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# İnkişafa təkan verən dostluq münasibətləri

Əvvəli 1-ci səh.

## Tarixi bağlar, ortaq dəyərlər

Rusiya Federasiyası ilə münasibətlər Azərbaycanın xarici siyasətində hər zaman mühüm yer tutub. Bu da təsadüfi deyil. Dünyanın ən böyük dövlətlərindən olan Rusiya şimal qonşumuzdur. Azərbaycan və Rusiya arasında tarixi bağlar, uzun onilliklər ərzində birgə yaradılmış zəngin mədəni dəyərlər mövcuddur. Müstəqillik dövründə iki ölkə arasında münasibətlər bərabərhüquqluluq, dövlət maraqlarına qarşılıqlı hörmət prinsipləri əsasında inkişaf etdirilir. Azərbaycanla Rusiya arasında iqtisadi-ticari əlaqələr getdikcə genişlənir və hər iki tərəfə böyük faydalar gətirir. Ölkələrimiz arasında humanitar sahədə hərarətli, hörmətli münasibətlər də Azərbaycan-Rusiya əməkdaşlığına böyük töhfələr verir.

Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi xarici siyasət kursunu yüksək diplomatik məharətlə davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Prezidenti Vladimir Putinin birgə səyləri nəticəsində ölkələrimiz arasındakı münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

Son ayların siyasi hadisələri də bu münasibətlərin getdikcə inkişafına, Rusiyanın Azərbaycanı Cənubi Qafqaz regionundakı yeganə siyasi və iqtisadi güc, güvənli tərəfdaş kimi qəbul etməsini təsdiqləyən faktlarla zəngindir. Prezident İlham Əliyevin 3 oktyabr 2019-cu ildə Soçi şəhərində keçirilən "Valday" Beynəlxalq Diskussiya Klubunun sessiyasında Rusiya Prezidenti Vladimir Putinin dəvəti ilə iştirak etməsi böyük maraq doğurdu.

Müasir dünyanın ən aktual məsələlərinin müzakirə edildiyi həmin sessiyadan əvvəl cənab İlham Əliyevin və Vladimir Putinin görüşündə əsas müzakirə mövzusu iki dövlət arasında əməkdaşlığın bundan sonra da genişləndirilməsi haqqında mülahizələr idi. Mehriban xanım Əliyevanın Rusiyaya rəsmi səfəri isə bu istiqamətdə həyata keçirilən birgə fəaliyyətin unikal göstəricisi və davamı oldu. Bütün sahələrdə əlaqələrin keyfiyyətcə yeni mərhələsini, dostluq körpüsünün daha etibarlı dayaqlarını yaratdı.

## Fotolarda əbədiləşən sayğı nümunəsi

Mehriban xanımın səfər proqramı Moskva şəhərindəki Aleksandr bağında naməlum əsgərin məzarını ziyarətlə başladı. Onun şərəfinə təntənəli mərasim təşkil edildi. Rəsmi yöndən baxsaq, bu, bir protokol tədbiri olsa da, Azərbaycanın Birinci vitse-prezidentinin abidəni ziyarət mərasimindən çəkilmiş, yüksək bədii məzmuna malik fotoları xalqlarımızın onilliklər əvvəl birgə adladığı məşəqqətli günlərin xatirəsinə, faşizmə qarşı mübarizədə canından keçən oğullarımıza, əmək cəbhələrində əziyyət çəkmiş insanlarımıza, ümumən Böyük Vətən müharibəsindəki qələbədə canını qoymuş, əməyi olmuş hər kəsə sayğı nümunəsi kimi böyük rəğbət doğurur.

MDB dövlət rəhbərlərinin cari ilin oktyabrında Türkmənistanın paytaxtı Aşqabad şəhərində keçirilən görüşü zamanı Azərbaycan Prezidentinin Ermənistanda Qaregin Njde ləqəbli faşist cəlladı, satqın Qaregin Ter-Arutyunyana abidə qoyulması faktını ifşa etməsindən sonra Mehriban xanımın naməlum əsgər məzarını ziyarəti xüsusilə tarixin unudulmaz həqiqətlərini təsdiqləyən fakt idi.

## İqtisadi faydalar

Mehriban xanım Əliyevanın rəsmi səfər çərçivəsində keçirdiyi yüksək səviyyəli görüşlər, Rusiya Prezidenti Vladimir Putin, Rusiya Federasiyası Hökumətinin sədri Dmitri Medvedev və Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko ilə apardığı müzakirələr, bunların fonunda Mehriban Əliyevanın şəxsiyyətinə olan ehtiram Azərbaycan-Rusiya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin parlaq örnəyinə çevrildi.

Rusiya Federasiyası Hökumətinin sədri Dmitri Medvedyevlə görüş xüsusilə iqtisadi sahədə əməkdaşlıq məsələlərinin müzakirəsi baxımından böyük maraq kəsb edirdi. Mehriban xanım Əliyevanın da qeyd etdiyi kimi, iqtisadi əməkdaşlıq Azərbaycanla Rusiyanın ikitərəfli əlaqələrinin ən mühüm komponentlərindən biridir. Rusiya Azərbaycanın əsas ticarət tərəfdaşlarındandır. Qeyri-neft məhsullarının idxalı üzrə birinci yeri tutur. Bu müstəvidə müşahidə olunan müsbət dinamika nikbinlik üçün əsas verir. Çünki hər il müvafiq istiqamətdə inkişaf özünü göstərir, ölkələrimiz arasında əmtəə dövriyyəsi artır. Mehriban xanım ötən il 19 faiz artım olduğunu, bu ilin 9 ayında isə artımın 24 faizə çatdığını, qarşılıqlı sərmayə qoyuluşunda yüksəldiyini diqqətə çatdırdı. Xatırladtı ki, Azərbaycan iqtisadiyyatına yatırılan Rusiya sərmayələrinin həcmi 4,9 milyard dollardır, Azərbaycan isə Rusiyaya 1,2 milyard dollar sərmayə qoyub. Ən mühüm məqam isə bundan ibarətdir ki, hökumətlərarası komissiyanın təhlilinə görə bu potensialdan hələ tam şəkildə istifadə edilməyib. Mövcud dinamikanı daha 2-3 dəfə artırmaq mümkündür.

İki ölkə arasındakı münasibətlər sanballı müqavilə-hüquq bazasına söykənir. Hazırda Azərbaycanla Rusiya arasında 140-a yaxın dövlətlərarası və hökumətlərarası müqavilə və saziş qüvvədədir. Ötən il isə 2024-cü ilədək olan dövr üçün Azərbaycan-Rusiya əməkdaşlığının əsas istiqamətləri üzrə plan imzalanıb. Bu proqram sənədi özündə 5 "yol xəritəsi"ni ehtiva edir. Onlar ticarətin və qarşılıqlı sərmayələrin həcminin artırılmasına, nəqliyyat potensialının inkişafına, birgə müəssisələrin yaradılmasına, rəqəmsallaşma sahəsində, büdcə-vergi sektorunda təcrübə mübadiləsinə, həmçinin humanitar əlaqələrə istiqamətlənib. Bütün bunlar hər iki dövlətin dostluq əlaqələrindən yaranan inkişaf səviyyəsindən soraq verən və qürur gətirən məsələlərdir.

## Strateji tərəfdaşlıq

Azərbaycan-Rusiya əlaqələrinin hazırkı yüksək inkişaf səviyyəsini digər amillərlə yanaşı, təbii ki, həm də iki ölkə liderlərinin yaxın dostluq münasibətləri şərtləndirir. Bunu Prezident İlham Əliyev "Valday" Diskussiya Klubundakı tarixi çıxışı zamanı da xüsusi vurğulamışdı. Azərbaycanla Rusiya arasındakı münasibətlərin mövcud səviyyəsini belə qiymətləndirmişdir: "Ölkələrimiz arasında münasibətlər strateji əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, biz bir-birimizi strateji tərəfdaşlar adlandırırıq. Bu gün biz ikitərəfli münasibətlərin çox geniş gündəliyini nəzərdən keçirdik və gələcək qarşılıqlı fəaliyyətin yollarını müəyyənləşdirdik. Ölkələrimiz arasında çox fəal siyasi dialoq mövcuddur. Dövlət başçılarının və digər rəsmi şəxslərin müntəzəm görüşləri əməkdaşlığımızın dərinləşməsinə şərait yaradır. Biz beynəlxalq təşkilatlar çərçivəsində fəal qarşılıqlı əlaqə saxlayırıq, ən mühüm, ümdə məsələlərdə ənənəvi olaraq bir-birimizi dəstəkləyirik".



Azərbaycan Prezidenti rusiyalı həmkarı ilə intensiv görüşlər keçirdiyini diqqətə çatdıraraq qeyd etmişdi ki, hətta görüşlərə bir neçə ay ara verdikdə, bu, böyük fasilə hesab olunur. Qeyd edək ki, təkcə ötən ilin əvvəlindən Azərbaycan və Rusiya prezidentlərinin doqquz görüşü baş tutub.

Mehriban xanım Əliyeva ilə görüşündə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin də Azərbaycan Prezidenti ilə etimada əsaslanan mehriban münasibətlərin formalaşdığını xüsusi diqqətə çatdırdı. Azərbaycan Prezidentinə ən xoş arzularını yetirməsini Mehriban xanımdan xahiş etdi və ümidvar olduğunu bildirdi ki, dekabrın 20-də cənab İlham Əliyevlə Peterburqda görüşmək şərəfinə nail olacaq.

Mehriban xanım Əliyeva da Azərbaycan Respublikası Prezidentinin rusiyalı həmkarı ilə münasibətləri çox yüksək qiymətləndirdiyini, Rusiya-Azərbaycan münasibətlərinə xüsusi əhəmiyyət verdiyini bildirdi. Rusiya Prezidenti Vladimir Putinlə Azərbaycan Prezidenti İlham Əliyev arasındakı müntəzəm görüşlərin iki ölkə arasındakı qarşılıqlı əlaqələrin çoxcəhətli və dinamik olduğunu vurğuladı və Azərbaycan Respublikası Prezidentinin münasib vaxtda ölkəmizə səfər etmək təklifini Vladimir Putinə çatdırdı.

## Rus dilinə ən yüksək münasibət

Bu gün Azərbaycanla Rusiya arasında münasibətlər mehriban qonşuluq və dostluq ənənələrinə əsaslanır. Dövlətlər səviyyəsində müntəzəm siyasi dialoq mövcuddur. Azərbaycan və Rusiya beynəlxalq arenada bir-birini dəstəkləyir. Bütün bu nailiyyətlərin əldə olunmasında isə ölkələrimiz, cəmiyyətlərimiz arasındakı humanitar əlaqələr çox mühüm rol oynayır. Mehriban xanım Əliyevanın Vladimir Putinlə görüşü zamanı diqqət mərkəzinə gələn əsas məsələlərdən biri də elə məhz humanitar əlaqələrin inkişafı idi.

Ölkələrimiz üçün bu məsələnin önəmi çox böyükdür. Müstəqil dövlət kimi Azərbaycan və Rusiya arasında diplomatik münasibətlər təxminən 26 illik dövrü əhatə etsə də, tarixilik baxımından münasibətlərin kökü daha qədimlərə gedib çıxır. Azərbaycan və rus xalqlarını təkcə ərazi yaxınlığı, ortaq sərhədlər deyil, həm də tarixi, mədəni, sosial bağlar bir-birinə bağlayır. Bu mənada, iki xalq və dövlət arasındakı münasibətlər təkcə sərhədlərə söykənən qonşuluqla əlaqədar deyil, həm də dostluq və əməkdaşlığa əsaslanan ən mühüm əlaqələrdir. Humanitar tərəfdaşlıq münasibətlərimizin qorunaraq daha da inkişaf etdirilməsinə, qarşılıqlı iqtisadi-ticari əlaqələrin güclənməsinə, insanların yüksək rifahının təmin olunmasına, təşəbbüslərin daha da genişlənməsinə, iki ölkənin bir-birinə inamının sarsılmazlığına möhkəm zəmin yaradır.

Azərbaycan-Rusiya humanitar əlaqələrinin mühüm hissəsi təhsil sferasını əhatə edir. Artıq neçə ildir ki, Azərbaycanda Moskva Dövlət Universitetinin və İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialı fəaliyyət göstərir. Hazırda Rusiyanın müxtəlif nüfuzlu ali məktəblərində 11 mindən çox tələbə təhsil alır. Bu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin hələ sovet Azərbaycanına rəhbərliyi dövründə formalaşdırdığı nəcib ənənənin davamıdır. Bu ildən etibarən Azərbaycan Diplomatik Akademiyasının və Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun ikili magistr diplomları proqramının birgə həyata keçirilməsinə başlanıb. Azərbaycanda 338 məktəbdə tədris rus dilində aparılır, 14 dövlət ali məktəbində rusdilli bölmə fəaliyyət göstərir.

Azərbaycanın çoxminlik rus icması da ölkəmizin ümumi inkişafına öz layiqli töhfəsini verir. Təsadüfi deyil ki, Cənubi Qafqazda etnik rusların ən böyük icması məhz Azərbaycanda məskunlaşıb. Onların öz ana dillərini, mədəniyyətlərini, milli adət-ənənələrini qoruyub saxlamaları, cəmiyyətin ictimai-siyasi, elmi-mədəni və sosial-iqtisadi həyatında geniş təmsil olunmaları, dövlətçiliyimizin möhkəmlənməsində fəal iştirak etmələri ölkəmizdəki multikulturalizm mühitinin nailiyyətidir.

Rus Pravoslav Kilsəsi Azərbaycandakı Rus İcmasının mədəni və mənəvi irsinin, adət və ənənələrinin qorunub saxlanılmasında mühüm rol oynayır. Respublikamızda digər dini konfessiyalar kimi kilsəyə də dərin hörmət bəslənir, onun fəaliyyətinə maddi-texniki və mənəvi dəstək verilir.

Azərbaycanın bu istiqamətdə tutduğu mövqeyi, həyata keçirdiyi dövlət siyasətini görüş zamanı Rusiya Prezidenti Vladimir Putinin də yüksək qiymətləndirdiyinin şahidi olduq. Humanitar əlaqələri, Azərbaycanda rus dilinə münasibəti xüsusi təqdir etdi: "Həqiqətən bu, keçmiş Sovet İttifaqı ölkələrindən, keçmiş Sovet İttifaqı respublikalarından biridir ki, orada, - biz bunu hiss edirik, - rus mədəniyyətinə, rus dilinə münasibət ən yüksək səviyyədə saxlanılır", deyən V.Putin Mehriban xanım Əliyevanın şəxsən bu işdə daim fəal iştirak etdiyini, Azərbaycan Prezidentinin də bunu dəstəklədiyini qeyd etdi: "Biz bunu çox yüksək qiymətləndiririk. Ona görə ki, bu baza bizim bütün başqa istiqamətlərdə münasibətləri, o cümlədən iqtisadi və humanitar əlaqələri, sözün geniş mənasında, inkişaf etdirməyə imkan verir. Buna görə biz Sizə çox təşəkkür edirik və öz tərəfimizdən bu trendi dəstəkləmək üçün nə lazımdırsa edəcəyik. Hesab edirəm ki, bu, bizim ümumi sərvətimizdir. Ona görə ki, bu, insanların öz aralarında hər hansı sədlər və maneələr olmadan ünsiyyət saxlamalarına, həm şəxsiyyətlərarası, həm də dövlət səviyyəsində münasibətləri inkişaf etdirməyə imkan verir".

Azərbaycan dövlətinin müstəqillik illərində rus dilinə bir çox keçmiş ittifaq ölkələrindən fərqli olaraq ögey münasibət göstərməməsi, bu dilin ənənələrini qoruyub saxlaması Ulu Öndər Heydər Əliyevin irəli sürdüyü milli inkişaf kursunun kamilliyindən irəli gəlir. Rus dilinə hörmət bir çox postsovet ölkələrində hakim olan yanlış düşüncənin əksinə olaraq, milli dilimiz, milli mədəniyyətimiz üçün heç bir təhdid doğurmur. Bir anlıq təsəvvür edək: rus dilinin dominant mövqedə olduğu, bütün dövlət idarələrində sənədləşmə işlərinin, təhsilin ancaq bu dildə olduğu 200 illik tarix boyu belə Azərbaycan xalqı yenə öz dilini, milli özünəməxsusluğunu tam qoruyub saxlaya bilmiş, rus dilinin imkanlarından mədəni inkişaf üçün yetərincə bəhrələnmişdir. Bu xalqın ən böyük mütəfəkkirləri, milli köklərə bağlı ən vətənpərvər ziyalıları rus dilində təhsil almış maarifçilərimiz, cümhuriyyət qurucularımız olublar. Bu halda Azərbaycan xalqı rus dilindən müstəqillik dövründə də çəkinməyə ehtiyac görmədi və bu gün də görmür. Əksinə, mükəmməl rus dili bilikləri müsəlman və türk mədəniyyətinin bir parçası olaraq, eyni zamanda, rus dilində məlumatlar, təhsil və mədəniyyət zənginliyi əldə etmək arzusunda olan vətəndaşlarımıza əlavə imkanlar yaratmışdır.

Mehriban xanım Əliyeva da, görünür, bu mülahizələrlə rus dilinə qayğının Azərbaycanda bir dövlət siyasəti olduğunu diqqətə çatdırdı: "Düşünürəm ki, biz gələcəkdə bu sahəyə daha çox diqqət yetirməliyik. Ona görə ki, gənc nəsil böyüməkdədir. Bizim nəslin ortaq kökləri, ortaq tarixi var. Gənc nəsil böyüyür. Ona görə də insanlar arasında, xüsusən gənc nəsil arasında humanitar sahədə bu gün mövcud olan əlaqələrin qorunub saxlanması və bu əlaqələrin daha da möhkəmlənməsi lazımdır".

Böyük qürur hissi ilə qeyd edirəm ki, Bakıda rus dilinin öyrənilməsi, ölkəmizdə bu dilin mədəniyyət ənənələrinin qorunması və inkişafı sahəsində illərdən bəridir ki, uğurla fəaliyyət göstərən mərkəzlərdən biri də məhz Bakı Slavyan Universitetidir. Universitetimiz ölkəmizdə digər slavyan dilləri ilə yanaşı, rus dili üzrə də həm peşəkar pedaqoji kadrların hazırlanmasında, həm də elmi tədqiqatların aparılmasında mühüm rol oynayır.

Rusiya Federasiya Şurasıının sədri Valentina Matviyenkonun X Azərbaycan-Rusiya Regionlararası Forumundakı çıxışı zamanı Bakı Slavyan Universitetinin fəaliyyətinə mühüm önəm verməsi də universitetimizin çoxsaylı kollektivi üçün qürurverici oldu: "Bakı Slavyan Universiteti əsl mənada nadir təhsil, elm və mədəniyyət mərkəzidir. Onun divarları arasında rus dilinin öyrənilməsi, slavyan xalqlarının ənənələri və mənəvi dəyərlərinin qorunub saxlanılması üzrə böyük iş aparılır", - deyən Federasiya Şurası sədri də öz növbəsində millətlərarası ünsiyyət dili olan rus dilinə bu cür diqqətli münasibətə görə Azərbaycan rəhbərliyinə bir daha dərin təşəkkürünü yetirdi.

## Faşizmin dostlarına qarşı birgə etiraz

Azərbaycan və Rusiya arasındakı humanitar əlaqələr, təbii ki, çox geniş istiqamətləri əhatə edir. Bakıda postsovet məkanında Rusiya və xarici ölkə yazıçılarının müxtəlif janrlarda rus dilində nəşr olunmuş kitablarının təqdim edildiyi ilk ixtisaslaşmış mağaza Rus Kitab Evi fəaliyyət göstərir. Bir neçə ay əvvəl Bakıdakı Rus Kitab Evinin fəaliyyətinin 10 illiyi təntənəli şəkildə qeyd edildi.

Mehriban xanım Əliyevanın rəhbəri olduğu Heydər Əliyev Fondunun Rusiyanın müxtəlif şəhərlərində həyata keçirdiyi çoxsaylı layihələr, fondun vitse-prezidenti və Rusiya nümayəndəliyinin rəhbəri Leyla xanım Əliyevanın bu ölkənin müxtəlif şəhərlərində yerinə yetirdiyi sosial-mədəni təşəbbüslər humanitar əlaqələrin inkişafına çox mühüm təsir göstərir.

Azərbaycanın Birinci vitse-prezidentinin Moskvada X Azərbaycan-Rusiya Regionlararası Forumunda iştirakı da səfər proqramının kifayət qədər əhəmiyyətli tədbirlərindən idi. Yada salaq ki, belə bir əməkdaşlıq forumu on il əvvəl Azərbaycan və Rusiya Prezidentlərinin dəstəyi ilə yaradılıb. Bu illər ərzində Azərbaycan-Rusiya Regionlararası Forumu iki ölkə arasındakı əlaqələrin inkişafı yönündə səmərəli mexanizmə, regionların, ictimaiyyət nümayəndələrinin, biznes təmsilçilərinin faydalı dialoq məkanına çevrilib.

Forum zamanı Rusiya Federasiya Şurasının sədri Valentina Matviyenko məmnunluqla diqqətə çatdırdı ki, hazırda ölkəsinin 72 subyekti Azərbaycanla ticari münasibətlər, humanitar əlaqələr saxlayır. Moskva, Moskva vilayəti, Sankt-Peterburq, Çelyabinsk, Volqoqrad, Saratov, Nijni-Novqorod, Həştərxan, Sverdlovsk vilayətləri, Stavropol və Krasnodar diyarları bu sahədə liderdirlər. Valentina Matviyenkonun ölkələrimizin nasizmə bəraət qazandırılmasının, antihitler koalisiyasının döyüşçülərinin xatirəsinin təhqir edilməsinin yolverilməzliyi barədə MDB Parlament Assambleyasına üzv dövlətlərin parlamentlərinin rəhbərlərinin bəyanatını dəstəkləməsi barədə fikirləri də maraq doğurdu. Valentina Matviyenko belə dedi: "Gələn il biz Böyük Vətən müharibəsində Qələbənin 75 illiyini birlikdə qeyd edəcəyik. Ortaq tarixin yenidən yazılması cəhdləri, nasizm üzərində qələbədə, Avropanın və dünyanın "qəhvəyi taun"dan xilas edilməsində bizim xalqlarımızın rolunun azaldılması cəhdlərinin qarşısının alınmasında səylərimizi birləşdirmək vacibdir. Burada, həmçinin çox ümid edirik ki, regionlararası səviyyədə də bu tarixi hadisəyə layiqincə diqqət yetiriləcək".

Bu, Azərbaycan Prezidentinin Aşqabaddakı tarixi çıxışından sonra Rusiya rəsmisinin dilindən Ermənistan rəhbərliyinə ünvanlanan, bu ölkədə faşist cəlladına abidə qoyulmasını pisləyən daha bir irad, işğalçı ölkənin növbəti dəfə nümayişkəranə ifşasıdır.

## Dostluğa verilən layiqli qiymət

Bu gün Azərbaycanla Rusiya arasında mədəniyyət sahəsində daimi dialoq həyata keçirilir, mütəmadi olaraq sərgilər, teatr qastrolları, konsertlər, musiqi və kino festivalları təşkil olunur. Artıq 25 ildir ki, iki ölkə arasında irimiqyaslı Mədəniyyət Günləri layihəsi reallaşdırılır.

Azərbaycan və Rusiya prezidentlərinin təşəbbüsü ilə yaradılmış Bakı Beynəlxalq Humanitar Forumunun müntəzəm toplantıları ölkələrimiz arasındakı dostluq münasibətlərinin inkişafına böyük təkan verir. Bu beynəlxalq platforma humanitar sahədə əlaqələri gücləndirməklə bərabər, həm də beynəlxalq səviyyədə humanitar çağırışları aktuallaşdırır.

Azərbaycanla Rusiya arasındakı münasibətlərin ən perspektivli istiqamətlərindən biri də turizmdir. Ötən il Rusiyadan Azərbaycana gələn turistlərin sayı rekord həddə - təqribən 900 min nəfərə çatıb. Ölkəmizə gələn turist sayına görə Rusiya birinci yeri tutur. Azərbaycan da öz növbəsində, Rusiyanın Şimali Qafqaz regionunun turizm infrastrukturu üçün əsas investorlardan biridir.

Səfər çərçivəsində xanım Mehriban Əliyevanın Moskvanın Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində yenidən qurulan "Azərbaycan" pavilyonunun açılış mərasimində iştirakı, 8-ci Moskva Beynəlxalq Müasir İncəsənət Biennalesi ilə tanış olması ölkələrimiz arasında humanitar əlaqələrin inkişafına xidmət edən maraqlı anlar kimi yadda qaldı. Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin səfəri Rusiya kütləvi informasiya vasitələrində də böyük maraq doğurdu. TASS agentliyi, "Rossiya 24" telekanalı, "Rossiyskaya qazeta" Mehriban xanım Əliyevadan geniş müsahibələr yaydı.

Mehriban xanımın Rusiyaya səfərinin ən tarixi anlarından biri isə Rusiya Prezidentinin bu ölkənin yüksək dövlət mükafatlarından olan "Dostluq" ordenini ona təqdim etməsi və söylədiyi bu fikirlər idi: "Əlbəttə, bu dövlət mükafatı, bu "Dostluq" ordeni bir tərəfdən, sanki formal hissə, formal məsələdir, lakin digər tərəfdən, Sizin diqqətinizi ona cəlb etmək istəyirəm ki, bu, düşünülmüş qərardır. Sadəcə, Sizin bizə gəldiyinizə görə yox, Sizin Azərbaycanda ali vəzifəli şəxslərdən biri olduğunuza görə yox. Bu, Sizin işinizlə, Sizin fəaliyyətinizlə, dövlətlərarası əlaqələrin bugünkü yüksək səviyyədə saxlanması ilə bağlıdır. Biz bunu çox yüksək qiymətləndiririk. Ordenin adı Sizin Azərbaycan ilə Rusiya arasında əlaqələrin inkişafı üçün gördüyünüz işləri əks etdirir. Onun adı belə də səslənir: "Dostluq" ordeni. Sizin işinizə görə və bu dostluğa görə çox sağ olun".

Azərbaycanda dostluq hər zaman ən yüksək dəyərlərdən sayılıb. Dövlət rəhbərinin bütün dünyada apardığı multikulturalizm siyasəti, bütün dünyada qarşılıqlı inamı, güvəni, birliyin gücünü, bu gücün yaratdığı nailiyyətləri özündə ehtiva edib və fərəhlidir ki, Azərbaycan və Rusiya arasındakı dostluq münasibətləri də bu dəyərin gücü ilə regionda sülhə, təhlükəsizliyə, davamlı inkişaf mühitinə, insanların rifahına xidmət edir.

***Nurlana ƏLİYEVA,***
***Bakı Slavyan Universitetinin rektoru, professor***

# "Enerjinin İpək yolu" tam istifadəyə verildi

### Prezident İlham ƏLİYEV: "Bu layihələrin həyata keçirilməsi Türkiyə-Azərbaycan birgə siyasi iradəsinin məhsuludur"

Əvvəli 1-ci səh.

Boru xəttinin digər ucu isə Yunanıstan-Türkiyə sərhədinə çatır və burada yerləşən Kipoi məntəqəsində TAP-la (Trans-Adriatik Qaz Boru Kəməri) qovuşur. Buna görə də TANAP-ı "Cənub qaz dəhlizi"nin möhkəm qolu, birləşdirici halqası da adlandırırlar.

Beləliklə, TANAP təkcə iki ölkə üçün, region üçün deyil, həm də bütün Avrasiya məkanı üçün önəm daşıyır. Noyabrın 30-da TANAP-ın Avropa ilə birləşən hissəsinin açılış mərasimindəki çıxışında Prezident İlham Əliyev demişdir: "Bu layihələrin həyata keçirilməsi Türkiyə-Azərbaycan birgə siyasi iradəsinin məhsuludur, eyni zamanda biz bunu digər ölkələrin iştirakı və özəl şirkətlərin maliyyə dəstəyi ilə reallaşdırdıq. Bu gün "Cənub qaz dəhlizi" özündə 7 ölkəni birləşdirir və bu, artıq beynəlxalq əməkdaşlıq layihəsidir. Bu layihə ölkələr arasında körpülər yaradacaq və daha böyük anlaşmaya yol açacaq. Bu layihədə iştirak edən yeddi ölkə, - onlardan üçü Avropa İttifaqının üzvüdür, - bundan sonra uzun illər birlikdə çalışacaq və bunun faydasını görəcəklər".

Məlum olduğu kimi, TANAP-la ildə 16 milyard kubmetr Azərbaycan qazı nəql olunacaq. Bunun 6 milyard kubmetri Türkiyəyə çatdırılacaq, 10 milyard kubmetri isə TAP-a ötürülərək Avropa ölkələrinin istifadəsinə veriləcək.

Bu il noyabrın 18-dək TANAP kəməri vasitəsilə Türkiyəyə 3,23 milyard kubmetr qaz ixrac edilib. Qarşıdakı illərdə kəmərin nəqletmə qabiliyyətinin əvvəlcə 24 milyard kubmetrə, daha sonra isə 31 milyard kubmetrə çatdırılması nəzərdə tutulur. Prezident İlham Əliyev sözügedən tədbirdə TANAP-ın "Cənub qaz dəhlizi"nin mühüm bir hissəsi, eyni zamanda enerji təhlükəsizliyi layihəsi olduğunu bir daha vurğulamışdır: "Cənub qaz dəhlizi" nəhəng infrastruktur layihəsidir, maliyyə dəyəri 38 milyard dollardır və dörd layihədən ibarətdir. Onlardan üçü - "Şahdəniz" və Cənubi Qafqaz Boru Kəməri istifadəyə verilib, bu gün isə TANAP tam istifadəyə verilir. Dördüncü layihə olan TAP-ın icrası artıq 90 faizi keçib. Əminəm ki, TAP da vaxtında istismara veriləcək. Beləliklə, Avrasiyada ən böyük infrastruktur layihələrindən biri olan "Cənub qaz dəhlizi" vaxtında istismara veriləcəkdir".

TANAP Azərbaycan və Türkiyə arasındakı köklü dostluğun parlaq bir rəmzidir. Təsadüfi deyil ki, layihə öz uğurlu yekununa Türkiyə və Azərbaycanın qarşılıqlı inama söykənən əlaqələri sayəsində çatmışdır. Layihənin qazandığı nailiyyətdə istehsalçı, istehlakçı və tranzit ölkələrlə iştirakçı şirkətlər arasındakı qarşılıqlı anlaşma da böyük rol oynayıb. Bir sözlə, istər "Cənub qaz dəhlizi", istərsə də onun ayrı-ayrı seqmentləri, o cümlədən TANAP möhkəm beynəlxalq əməkdaşlıq platforması üzərində inkişaf edən layihələrdir.

Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan sözügedən tədbirdəki çıxışında bu platforma haqqında danışmış, həmçinin "Cənub qaz dəhlizi"nin perspektivlərinə də toxunaraq demişdir: "TANAP Azərbaycan, Gürcüstan, Türkiyə marşrutundan Avropaya - TAP xəttinə birləşir və təbii ki, oradan davam edərək Bolqarıstan, Yunanıstan, Makedoniya, Albaniya, Serbiya, Bosniya və Herseqovina marşrutu üzərindəki ölkələr də ondan faydalanır. Təbii ki, bütün bu addımları atarkən bunun bir regional layihə, bir sülh layihəsi olduğunu da xüsusilə vurğulamaq lazımdır. Gürcüstan ərazisindən Anadoluya giriş reallaşarkən Gürcüstanın buradakı səylərini əsla inkar etmək olmaz. Bu, bir həmrəylikdir və bu həmrəyliyin adı da sülhdür".

Azərbaycan qazını Gürcüstan-Türkiyə sərhədində CQBK-dan qəbul edən, onu Türkiyənin ərazisindən keçirərək Avropaya - Yunanıstan sərhədinədək çatdıran TANAP nəzərdə tutulan təqvimdə, bütün öhdəliklərə və hədəflərə uyğun olaraq tamamlandı. Buna görə də indi o, artıq "Enerjinin İpək yolu" adını da qazandı.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Gənc sərhədçilər vətənə sədaqət andı içiblər



Dövlət Sərhəd Xidmətinin (DSX) Yevlax şəhərində yerləşən hərbi hissəsində gənc əsgərlərin andiçmə mərasimi keçirilib.

Dövlət himninin səslənməsi ilə başlayan mərasimdə gənc əsgərlər təntənəli şəkildə hərbi anda gətirildikdən sonra tədbir iştirakçılarına Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyevin təbriki çatdırılıb.

Mərasimdə Ulu Öndər Heydər Əliyevin dövlət sərhədlərimizin qorunması, Azərbaycan sərhəd mühafizəsinin formalaşması və inkişafı istiqamətindəki xidmətləri, böyük dövlət xadiminin müəyyənləşdirdiyi milli sərhəd strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi sayəsində ölkəmizin sərhəd mühafizəsinin ən müasir tələblər səviyyəsinə qaldırılması xüsusi qeyd olunub.

Çıxış edənlər vətənə, dövlətə sədaqət andı içərək müqəddəs sərhədlərimizi şərəflə qorumaq məsuliyyətini öz üzərinə götürən gənc əsgərlərin hərbi anda daim sadiq qalacaqlarına əminliklərini bildirərək onlara müvəffəqiyyətlər arzulayıblar.

Tədbirdə Dövlət Sərhəd Xidmətinin şəxsi heyətinin ölkəmizin ərazi bütövlüyünün bərpası, işğal altında olan torpaqlarımızda Azərbaycanın suveren hüquqlarının təmin edilməsi və həmin ərazilərdə dövlət sərhədlərinin mühafizəsinin Azərbaycanın dövlət bayrağı altında təşkil ediləcəyinə əminlik ifadə edilib. Eyni zamanda Ermənistan ilə dövlət sərhədinin Qazax və Ağstafa rayonları ərazisindən keçən hissəsinin mühafizəsinin Dövlət Sərhəd Xidmətinə həvalə olunması şərəf və qürur olmaqla yanaşı, Ali Baş Komandanın Azərbaycan sərhədçisinə olan etimad və etibarının ifadəsi kimi dəyərləndirilib.

Çıxış edən valideynlər yaradılmış şəraitə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirib, övladlarını təbrik edərək vətən sərhədlərinin keşiyində ayıq-sayıq dayanmağı tövsiyə ediblər.

Mərasim gənc əsgərlərin təntənəli marşla tribuna önündən keçidi ilə başa çatıb.

***"Azərbaycan"***

*"Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına əsasən mühasibat uçotunun aparılması Qaydaları"na 1 nömrəli əlavə.*

***Maliyyə vəziyyəti haqqında hesabat***
***31 dekabr 2018-ci il tarixə***

VÖEN: 6000099391
Mühasibat uçotu subyektinin adı: Göyçay Şərab ASC
Sahə (fəaliyyət növü): İstehsal
Mülkiyyət növü: Xüsusi
Ünvan: Göyçay rayonu, Mirzəhüseynli kəndi
Elektron poçt ünvanı: goycaysarabasc@mail.ru

**Ölçü vahidi: manat**

| Bölmə/ Maddə №-si üzrə | Bölmə/Maddələrin adı | Uçot siyasəti və izahlı qeydlərin №-si | Hesabat dövrü üzrə | Əvvəlki dövr |
|---|---|---|---|---|
| | **AKTİVLƏR** | | | |
| **1** | **Uzunmüddətli aktivlər** | | **28950** | **28950** |
| 10 | Qeyri-maddi aktivlər | | | |
| 11 | Torpaq, tikili və avadanlıqlar | | | |
| 12 | İnvestisiya mülkiyyəti | | | |
| 13 | Bioloji aktivlər | | | |
| 14 | Təbii sərvətlər | | | |
| 15 | İştirak payı metodu ilə uçota alınmış investisiyalar | | | |
| 16 | Təxirə salınmış vergi aktivləri | | | |
| 17 | Uzunmüddətli debitor borcları | | | |
| 18 | Sair uzunmüddətli maliyyə aktivləri | | | |
| 19 | Sair uzunmüddətli aktivlər | | | |
| | **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | 28950 | 28950 |
| **2** | **Qısamüddətli aktivlər** | | | |
| 20 | Ehtiyatlar | | 6522633 | 8589285 |
| 21 | Qısamüddətli debitor borcları | | 83232 | 198334 |
| 22 | Pul vəsaitləri və onların ekvivalentləri | | 17460 | 268777 |
| 23 | Sair qısamüddətli maliyyə aktivləri | | 313675 | 155286 |
| 24 | Sair qısamüddətli aktivlər | | | |
| | **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | | **414367** | **622397** |
| | **CƏMİ AKTİVLƏR** | | **6965950** | **9240632** |
| | **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| **3** | **Kapital** | | | |
| 30 | Ödənilmiş nominal (nizamnamə) kapital | | 39600 | 39600 |
| 31 | Emissiya gəliri | | | |
| 32 | Geri alınmış kapital (səhmlər) | | | |
| 33 | Kapital ehtiyatları | | 2623800 | 2623800 |
| 34 | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | 408000 | 108560 |
| | **CƏMİ KAPİTAL** | | **3071400** | **2771960** |
| **4** | **Uzunmüddətli öhdəliklər** | | | |
| 40 | Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | | |
| 41 | Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | | | |
| 42 | Təxirə salınmış vergi öhdəlikləri | | | |
| 43 | Uzunmüddətli kreditor borcları | | | |
| 44 | Sair uzunmüddətli öhdəliklər | | | |
| | **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | | |
| **5** | **Qısamüddətli öhdəliklər** | | | |
| 50 | Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | | |
| 51 | Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | | | |
| 52 | Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | | | |
| 53 | Qısamüddətli kreditor borcları | | 2709180 | 4212342 |
| 54 | Sair qısamüddətli öhdəliklər | | 1185370 | 2256330 |
| | **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | | |
| | **CƏMİ ÖHDƏLİKLƏR** | | 3894550 | 6468672 |
| | **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | 6965950 | 9240632 |

***"Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına əsasən mühasibat uçotunun aparılması Qaydaları"na 2 nömrəli əlavə.***

Mənfəət və ya zərər və digər məcmu gəlir
haqqında hesabat (xərclərin xarakteri üzrə)
31 dekabr 2018-ci il tarixə

**Ölçü vahidi: manat**

| Bölmə (maddə) və hesab №-si | Göstəricilərin adı | Uçot siyasəti və izahlı qeydlərin №-si | Hesabat dövrü üzrə | Əvvəlki dövr üzrə |
|---|---|---|---|---|
| 60 | Əsas əməliyyat gəlirləri | | 4413680 | 15854743 |
| 61 və 73 | Sair əməliyyat gəlirləri | | | |
| | Bitməmiş istehsalat və hazır məhsul ehtiyatlarındakı artımlar (azalmalar) | | | |
| | Təşkilat tərəfindən yerinə yetirilmiş və kapitallaşdırılmış işlər | | | |
| | İstifadə edilmiş material ehtiyatları | | 2881395 | 14065540 |
| | İşçi heyəti üzrə xərclər | | 63363 | 59252 |
| | Amortizasiya xərcləri | | | |
| | Digər əməliyyat xərcləri | | 439982 | 599440 |
| 73 və 61 | Sair əməliyyat xərcləri | | 518940 | 1021951 |
| 62 və 74 | Fəaliyyətin dayandırılmasından yaranan mənfəətlər (zərərlər) | | | |
| | Əməliyyat mənfəəti (zərəri) | | 510000 | 108560 |
| 63 və 75 | Maliyyə mənfəəti (zərəri) | | 510000 | 108560 |
| 64 və 76 | Fövqəladə mənfəət (zərər) | | | |
| 81 | Asılı və birgə müəssisələrin mənfəətlərində (zərərlərində) pay | | | |
| | Vergiqoymadan əvvəl mənfəət (zərər) | | | |
| 90 | Mənfəət vergisi | | 102000 | 21712 |
| 341 | Hesabat dövründə xalis mənfəət (zərər) | | 408000 | 21712 |
| | O cümlədən | | | |
| | qeyri-nəzarət payları üzrə xalis mənfəət (zərər) | | | |
| | əsas cəmiyyətin sahiblərinin mənfəəti (zərəri) | | | |
| | Digər məcmu gəlir | | | |
| | Məcmu gəlir (xalis mənfəətin (zərərin) və digər məcmu gəlirin cəmi) | | | |
| | O cümlədən | | | |
| | qeyri-nəzarət payları üzrə xalis mənfəət (zərər) | | | |
| | əsas cəmiyyətin sahiblərinin mənfəəti (zərəri) | | 408000 | 86848 |

***Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat (xərclərin funksiyaları üzrə)***
***31 dekabr 2018-ci il tarixə***

**Ölçü vahidi: manat**

| Bölmə (maddə) və hesab №-si | Göstəricilərin adı | Uçot siyasəti və izahlı qeydlərin №-si | Hesabat dövrü üzrə | Əvvəlki dövr üzrə |
|---|---|---|---|---|
| 60 | Əsas əməliyyat gəlirləri | | 4413680 | 15854743 |
| 70 | Satışın maya dəyəri üzrə xərclər | | 3903680 | 15746183 |
| | Ümumi mənfəət (zərər) | | 510000 | 108560 |
| 61 və 73 | Sair əməliyyat gəlirləri | | | |
| 71 | Kommersiya xərcləri | | | |
| 72 | İnzibati xərclər | | | |
| 73 və 61 | Sair əməliyyat xərcləri | | | |
| 62 və 74 | Fəaliyyətin dayandırılmasından yaranan mənfəətlər (zərərlər) | | | |
| | Əməliyyat mənfəəti (zərəri) | | | |
| 63 və 75 | Maliyyə mənfəəti (zərəri) | | | |
| 64 və 76 | Fövqəladə mənfəət (zərər) | | | |
| 81 | Asılı və birgə müəssisələrin mənfəətlərində (zərərlərində) pay | | | |
| | Vergiqoymadan əvvəl mənfəət (zərər) | | 510000 | 108560 |
| 90 | Mənfəət vergisi | | 102000 | 21712 |
| 341 | Hesabat dövründə xalis mənfəət (zərər) | | 408000 | 86848 |
| | O cümlədən | | | |
| | qeyri-nəzarət payları üzrə xalis mənfəət (zərər) | | | |
| | əsas cəmiyyətin sahiblərinin mənfəəti (zərəri) | | 408000 | 86848 |
| | Digər məcmu gəlir | | | |
| | Məcmu gəlir (xalis mənfəətin (zərərin) və digər məcmu gəlirin cəmi) | | | |
| | O cümlədən | | | |
| | qeyri-nəzarət payları üzrə xalis mənfəət (zərər) | | | |
| | əsas cəmiyyətin sahiblərinin mənfəəti (zərəri) | | | |

*Xərclərin xüsusiyyətləri üzrə təsnifat əsasında əməliyyat xərcləri haqqında*
*MƏLUMAT*

| Bölmənin/ maddənin №-si | | Uçot siyasəti və izahlı qeydlərin №-si | Hesabat dövrü üzrə | Əvvəlki dövr üzrə |
|---|---|---|---|---|
| | Hazır məhsul və bitməmiş istehsal ehtiyatlarındakı artımlar (azalmalar) | | | |
| | Təşkilat tərəfindən yerinə yetirilmiş və kapitallaşdırılmış işlər | | | |
| | İstifadə edilmiş material ehtiyatları | | 2881395 | 13661833 |
| | İşçi heyəti üzrə xərclər | | 63363 | 59252 |
| | Amortizasiya xərcləri | | | 3350 |
| | Digər əməliyyat xərcləri | | 958922 | 1221189 |
| | Cəmi əməliyyat xərcləri | | 30903680 | 14945624 |

**Rəhbər** **N.S. Kərimov**
**Baş mühasib**

**28 yanvar 2019-cu il**

AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI

**AUDİTOR RƏYİ**
**AUDITOR OPINION**
**SERİYA AT №-23**

07.05.2019-cı il

Göyçay rayonu
"Göyçay Şərab"ASC

1. Mən Şəmkir rayonu Auditorlar təşkilatının auditoru Azərbaycan Respublikası Auditorlar Palatasının verdiyi 12 fevral 2019-cu il tarixli 127 saylı lisenziyaya əsasən Göyçay rayonu "Göyçay Şərab" ASC ilə bağlanmış 02.05.2019-cu il tarixli AP-23 saylı müqaviləyə əsasən ASC-də 01,01..2018-ci il tarixdən 01.01.2019-cu il tarixədək dövrün maliyyə-təsərrüfat fəaliyyətini əks etdirən maliyyə hesabatlarının auditor yoxlamasını apardım .

Audit 02.05.2019-cu il tarixdə başlayıb 07.05.2019-cu ildə başa çatdı.
Audit yoxlamasına təqdim edilən sənədlərin düzgünlüyünə sifarişçi-təşkilat subyektinin rəhbərliyi məsuliyyət daşıyır.

2. Mənim vəzifəm həmin sənədlərə əsasən aparılmış yoxlama nəticəsində sifarişçinin maliyyə-təsərrüfat fəaliyyətinin qanuniliyinə, mühasibat uçotunun ümumi vəziyyətinə qiymət verməkdir və mən yalnız bu rəydə əks olunmuş mülahizələrimə görə məsuliyyət daşıyıram .

3. Mülahizələri düzgün formalaşdırmaq üçün kifayət qədər auditor sübutlarının toplanması məqsədilə mən qüvvədə olan audit standartlarının tələblərinə uygün olaraq auditi planlaşdırmış və audit prosiduralarını yerinə yetirmişəm.

Audit zamanı təqdim olunmuş sənədlərdə əsas kimi götürülmüş təsdiq edici materiallar yoxlanılmış, habelə ASC-nin tərtib etdiyi uçot prinspləri qiymətləndirilmişdir.
Hesab edirəm ki, yerinə yetirilmiş prosedurların nəticəsində rəy vermək üsün kifayət qədər auditor sübutu toplamışam. Aparılan yoxlama zamanı müəyyən edildi ki, mühasibat uçotu və hesabatın aparılmasında müəyyən olunmuş uçot prinsibləri bəzi hallarda pozulmaqla aparılmışdır.

4.Mənim mülahizələrimə görə əvvəlki,bənd də – ikincisi isə Sərbəst Auditorda saxlanılır.də göstərilən asketlərin təsiri istisna olmaqla təqdim olunan maliyyə hesabatlarının 01.01.2018-ci ildən 01.01.2019-cu ilə olan dövrü ərzində əməliyyatların nəticələrinin düzgünlüyünü göstərməklə Azərbaycan Respublikasının maliyyə hesabatının tərtibi və mühasibat uçotu üzrə qanunvericilik və normativ aktların tələblərinə müvafiqdir.

5. Rəy 07.05.2019-cu il tarixdə eyni qüvvəyə malik iki nüsxədə tərtib edilmişdir. Bunlardan biri sifarişçi "Göyçay Şərab" ASC də – ikincisi isə Sərbəst Auditorda saxlanılır.

Sərbəst Auditor M.S.SADIQOV

SƏRBƏST AUDİTOR — AZƏRBAYCAN RESPUBLİKASI AUDİTORLAR PALATASI

# "Azerbaijan Digital Hub" proqramı ilə Azərbaycan Regional Rəqəmsal Mərkəzə çevriləcək

Son 25 il ərzində Azərbaycan mühüm inkişaf yolu keçərək regionun enerji və nəqliyyat mərkəzinə çevrilib. Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu məqsədyönlü siyasət, reallaşdırılan iri infrastruktur layihələri, bu siyasətin hazırda cənab Prezident İlham Əliyev tərəfindən davam etdirilməsi, bütün sahələrdə aparılan islahatlar Azərbaycanın dayanıqlı inkişafa nail olması ilə nəticələnib və hazırda ölkəmiz regionun lider dövlətidir.



Azerbaijan Digital Hub | AzerTelecom

Hazırda dünya dördüncü sənaye inqilabına (Sənaye 4.0) qədəm qoyub. Sənaye 4.0 bizdən dəyişikliklərə daha çevik reaksiya verməyi, innovasiyaları həyatımızın bütün sahələrində tətbiq etməyi tələb edir. Sənaye 4.0 qarşımızda inanılmaz imkanlar açır, cəmiyyətlər və dövlətlərə rəqəmsal transformasiya imkanları təqdim edir. Bu gün **Azərbaycanın özünün əlverişli coğrafi mövqeyi, sahib olduğu enerji və nəqliyyat mərkəzləri statusu və potensialından istifadə etməklə ətraf regionlar üçün həm də Regional Rəqəmsal Mərkəzə çevrilmək imkanı vardır.**

Məhz bütün bu məqamları və xüsusilə də ölkə başçısı cənab İlham Əliyevin İKT sektorunun dayanıqlı inkişafı istiqamətində məqsədyönlü siyasətini əsas tutaraq hazırda Azərbaycan iqtisadiyyatının özəl sektorunda ən böyük şirkətlərdən olan **"Bakcell" şirkətinin törəmə müəssisəsi - magistral internet provayderi "AzerTelecom" şirkəti tərəfindən Azərbaycanın Regional Rəqəmsal Mərkəzə çevrilməsi üçün "Azerbaijan Digital Hub" proqramı icra edilir.** Bu proqram nəzərdə tutur ki, Azərbaycan Avropa və Asiya arasında Regional Rəqəmsal Mərkəzə çevrilsin və Qafqaz, MDB, Yaxın Şərq, Orta və Cənubi Asiya və digər ətraf region dövlətlərinin (dünya əhalisinin 1/4-i və ya 1.8 milyard əhali) internet və müxtəlif rəqəmsal xidmətlərə olan ehtiyacını daha yaxşı təmin etsin. Bakı şəhəri dünyanın internet xəritəsinə əlavə edilsin və Amsterdam, Frankfurt, Sofiya, London, İstanbul, Dubay kimi İnternet Mübadilə Mərkəzinə (IXP - Internet Exchange Point) çevrilsin.

"Azerbaijan Digital Hub" proqramı ümumilikdə 3 mərhələdən ibarətdir və son nəticədə rəqəmsal ekosistemin formalaşmasına töhfə verəcək. Proqramın birinci mərhələsi ölkə daxilində və xaricində iri infrastruktur quruculuğu layihələrinin icrasını, ikinci mərhələsi Bakının internet mübadilə mərkəzinə çevrilməsi və burada regional Data mərkəzin tikilməsini, üçüncü mərhələ isə rəqəmsal ekosistemin formalaşmasını nəzərdə tutur.

Proqramın icrası yeni iş yerlərinin açılmasına, rəqəmsallaşmanın sürətlənməsinə, rəqəmsal iqtisadiyyatın formalaşmasına və bu istiqamətdə kiçik və orta biznesin inkişafına, yeni rəqəmsal məhsulların yaranması və "Made in Azerbaijan" brendi altında ixracına töhfə verəcək. Bütün bunlar isə son nəticədə ölkədə rəqəmsal ekosistemin formalaşmasına şərait yaradacaq. Xüsusilə ilkin infrastruktur quruculuğu mərhələsindən sonra ikinci mərhələdə regionda ən böyük Data mərkəzin tikilməsi iri kontent provayderləri olan şirkətlərin (Amazon, Alibaba, Facebook, Google, Netflix, Tencent və s.) burada nümayəndəliklərini açması, məlumatları burada saxlaması və kontentin məhz buradan digər regionlara daşınmasına imkan verəcək.

## Proqramın icrası üçün iri infrastruktur layihələri icra edilir

"Digital Hub" proqramı çərçivəsində artıq bir sıra işlər görülüb. Ölkə daxilində infrastruktur quruculuğu istiqamətində "AzerTelecom" Azərbaycan Dəmir Yolları QSC ilə birgə mövcud dəmir yollarının qorunma zolağı boyu magistral fiber-optik kabel xətlərinin tikintisi layihəsini icra edir ki, bu da ölkənin rəqəmsal infrastrukturunun güclənməsinə, ölkə boyu yeni davamlı infrastrukturun formalaşmasına töhfə verəcək. Bu, həmçinin qonşu dövlətlər olan Rusiya, Gürcüstan, Türkiyə və İran ilə dayanıqlı genişzolaqlı fiber-optik kabel bağlantılarının formalaşmasına, Şimal-Cənub, Şərq-Qərb istiqamətlərində olan müxtəlif beynəlxalq telekom operatorlarının infrastrukturlarının ölkəmizdə kəsişməsinə gətirib çıxardacaq.

"AzerTelecom" proqram çərçivəsində ölkə xaricində infrastruktur quruculuğu istiqamətində isə Azərbaycanla Orta Asiya ölkələri arasında Xəzər dənizinin dibi ilə yüksək məlumat ötürmə imkanına sahib Transxəzər fiber-optik kabel xəttinin çəkilməsi layihəsini reallaşdırır. Magistral kabel xətti iki marşrut - Azərbaycan-Qazaxıstan və Azərbaycan-Türkmənistan istiqamətlərində çəkiləcək.

Artıq bu ilin 19 mart tarixində Azərbaycan və Qazaxıstan arasında Xəzər dənizinin dibi ilə Transxəzər fiber-optik kabel xəttinin (TransCaspian Fiber Optic - TCFO) çəkilməsi ilə bağlı dövlətlərarası saziş imzalanıb. Azərbaycan-Türkmənistan arasında Xəzər dənizinin dibi ilə fiber-optik kabel xəttinin çəkilməsi ilə bağlı dövlətlərarası saziş isə 28 noyabr tarixində Türkmənistanın Aşqabad şəhərində baş tutmuş "Türkməntel 2019" - 12-ci Beynəlxalq Telekom və İT Sənayesi sərgisi çərçivəsində imzalanıb.

Dövlətlərarası sazişlərə əsasən, Azərbaycan-Qazaxıstan arasında Xəzər dənizinin dibi ilə uzunluğu 380-400 km olacaq magistral kabel xətti Azərbaycan tərəfdən **"AzerTelecom"** şirkəti, Qazaxıstan tərəfdən isə **"KazTransCom"** və **"Transtelecom"** şirkətləri tərəfindən çəkiləcək. Uzunluğu təqribən 300 km olacaq Azərbaycan-Türkmənistan marşrutunun operatorları isə Azərbaycan tərəfdən **"AzerTelecom",** Türkmənistan tərəfdən isə **"Türkməntelekom"** telekommunikasiya operatorudur.

**Transxəzər fiber-optik kabel xətti Azərbaycandan keçməklə Avropa və Asiya qitələri arasında rəqəmsal dəhlizin - tarixi İpək yolunun üzərində yeni Rəqəmsal İpək yolunun formalaşması, Qafqaz, Orta Asiya və Cənubi Asiya, Uzaq Şərq kimi regionların telekommunikasiya infrastrukturunun inkişafı və bu regionların Azərbaycan vasitəsilə internet və gələcəkdə müxtəlif rəqəmsal xidmətlərlə daha yaxşı təmin edilməsində mühüm rol oynayacaq.**

Araşdırmalar göstərir ki, Asiya qitəsində internet və rəqəmsal xidmətlərə olan ehtiyac hər il artır. Hazırda Asiya qitəsində 4.2 milyard nəfərdən çox əhali yaşayır. Internet World Stats (Dünya üzrə internetdən istifadə, əhali, sosial media statistikası və internet bazarını araşdıraraq məlumatları təqdim edən beynəlxalq internet resursu) resursunun verdiyi məlumata əsasən, Asiyada internetin nüfuz etmə səviyyəsi 54.2 faizdir. Avropa qitəsində isə əhalinin sayı 1 milyarda yaxındır (internetin nüfuz etmə səviyyəsi 86.8 faiz). Dünyanın həm əsas internet mübadilə mərkəzləri, həm də iri kontent provayderləri Avropada yerləşir. Başqa sözlə, Avropa internet və kontentin istehsalçısı, Asiya isə istehlakçısıdır. Asiya qitəsində internet trafiki və kontentə olan ehtiyacın hər il artması dövlətləri və telekommunikasiya operatorlarını yeni marşrutlar axtarmağa və inşa etməyə sövq edir.

## Transxəzər fiber-optik kabel xətti Asiya ölkələrinin data trafikinə ehtiyacını təmin edəcək

"AzerTelecom" tərəfindən Qazaxıstan və Türkmənistanın tərəfdaş telekommunikasiya operatorları ilə birgə reallaşdırılan və Xəzər dənizinin dibi ilə çəkiləcək Transxəzər fiber-optik kabel xətti Avropa ilə Asiya arasında Azərbaycanın rəqəmsal mərkəz olaraq mövqelənməsinə, eləcə də region ölkələrinə yeni bağlantı (connectivity) imkanlarının təqdim edilməsinə imkan verəcək. Transxəzər fiber-optik kabel xətti region ölkələrini hazırda internet xidməti ilə təmin edən digər marşrutlardan fərqli olaraq bir çox üstünlüklərə sahib olacaq. Bunlar aşağıdakılardır:

- Azərbaycanın unikal coğrafi mövqeyindən (Şimal-Cənub və Şərq-Qərb dəhlizlərinin mərkəzi) istifadə etməklə Xəzər dənizinin dibi ilə çəkiləcək Transxəzər fiber-optik kabel xətti daha qısa marşrutdur;
- Bu magistral xəttin qısa marşrut olması informasiyanın daşınmasında gecikməni (latency) əhəmiyyətli şəkildə azaldacaq. Hazırda Avropa və Asiya arasında mövcud olan marşrutların hər birinin uzun məsafəni qət etməsi səbəbindən data trafikinin daşınmasında gecikmə müşahidə olunur;
- Transxəzər fiber-optik kabel marşrutu Orta, Cənubi Asiya və digər ətraf regionlarda yerləşən dövlətlərdə data istehlakı və bağlantı xidmətlərinə olan ehtiyaca adekvat cavab verə biləcək və Avropa ilə Asiya arasında data tranzit ehtiyaclarını tamamilə ödəyəcək.

Transxəzər fiber-optik kabel xəttinin çəkilməsi Azərbaycanın, ümumilikdə isə Asiya qitəsində böyük bir arealın rəqəmsal inkişafına mühüm töhfə verəcək, rəqəmsal transformasiya proseslərini daha da sürətləndirəcək.

Ümumilikdə "Digital Hub" proqramının icrası Sənaye 4.0 şəraitində telekommunikasiya sektorunun davamlı inkişafı, müxtəlif sahələrdə innovasiyaların tətbiqi, ölkəmizin beynəlxalq reytinqlərdə mövqeyinin irəliləməsi, iqtisadiyyatın inkişafı və rəqəmsal transformasiya proseslərinin həyata keçməsinə mühüm töhfə verəcək.

***Fuad ALLAHVERDİYEV,***
***"AzerTelecom" MMC-nin Baş direktoru, "Azerbaijan Digital Hub" proqramının rəhbəri***


## 2020-ci il "Bakı Metropoliteni" QSC üçün katriclərin satın alınması üzrə *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**
Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.
**LOT-1. 2020-ci il "Bakı Metropoliteni" QSC üçün katriclərin satın alınması**

**İştirak haqqı - 200 manat**
**Hesabın adı: BAKI METROPOLITENI QSC**
**Hesab nömrəsi (IBAN):**
**AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**
İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.
Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.
İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **25 dekabr 2019-cu il saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **07 yanvar 2020-ci il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.
İddiaçıların təklifləri **08 yanvar 2020-ci il saat 15:00-da** açılacaqdır.
İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***



## 2020-ci il "Bakı Metropoliteni" QSC-nin istifadəsində olan printerlərin təmiri və katric doldurulması xidmətlərinin satın alınması üzrə *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**
Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.
**LOT-1. 2020-ci il "Bakı Metropoliteni" QSC-nin istifadəsində olan printerlərin təmiri və katric doldurulması xidmətlərinin satın alınması**

**iştirak haqqı - 100 manat**

**Hesabın adı: BAKI METROPOLITENI QSC**
**Hesab nömrəsi (IBAN):**
**AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.
Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.
İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **25 dekabr 2019-cu il saat 15:30-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **07 yanvar 2020-ci il saat 15:30-a qədər** Portal vasitəsilə təqdim etməlidirlər.
İddiaçıların təklifləri **08 yanvar 2020-ci il saat 15:30-da** açılacaqdır.
İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***


# "Karyerada ilk addım"ını at!



Ölkədə gənclərin həm fərdi, həm də peşəkar inkişafına təkan verən layihələrin təşəbbüskarı və karyera sərgilərinin fəal iştirakçısı olan "Azercell Telekom" MMC bu dəfə də ənənəsinə sadiq qalıb.

Şirkət Azərbaycan Texniki Universiteti ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin birgə əməkdaşlığı çərçivəsində noyabr ayının 28-i İdman sarayında təşkil olunan II Karyera Sərgisinə qatılıb. "Karyerada ilk addım" devizi altında keçirilən bu sərgi iş imkanlarını gənc peşəkarlarla paylaşmaqla yanaşı, həm də onların müəssisə əməkdaşları ilə ünsiyyət qurması və iş həyatında möhkəm addımlarla irəliləməsi yönündə önəmli bir təşəbbüsdür.

"Azercell" şirkətinin İnsan Kapitalının İdarə Edilməsi şöbəsinin əməkdaşları sərgi iştirakçılarına əmək bazarındakı son tendensiyalardan bəhs edib və onları maraqlandıran sualları cavablandırıb. Həmçinin "Azercell" əməkdaşları şirkətdə mövcud olan vakansiyalar, tələbələr üçün nəzərdə tutulan Təqaüd və Təcrübə proqramları barədə də bəhs edib.

Vurğulamaq istərdik ki, "Azercell"in həyata keçirdiyi sosial layihələrin böyük bir qismi təhsil sahəsinə aiddir. Ölkənin aparıcı ali təhsil mərkəzləri ilə əməkdaşlıq edən "Azercell" bu minvalla gənclərin potensiallarının üzə çıxarılmasına, onların peşəkar kadr olaraq yetişdirilməsinə öz dəstəyini verir.

***"Azərbaycan"***

# Qardaşlığın 40 illiyi

## Bakı və Bordo şəhərləri arasında qardaşlıq əlaqələrinin yaranması ilə bağlı yubiley tədbiri keçirilib





Bu il paytaxtımız Bakı ilə Fransanın Bordo şəhərləri arasında qardaşlıq əlaqələrinin yaranmasının 40 ili tamam olur. Məhz 1979-cu ildə Bordoda şəhərlərin qardaşlaşması barədə sənəd imzalanıb.

Əlamətdar tarixlə əlaqədar Fransa Respublikasının Azərbaycandakı səfirliyi Bakı Şəhər İcra Hakimiyyəti ilə birgə Ağ şəhərdə yerləşən Nobel qardaşlarının ev-muzeyində Bakı və Bordo şəhərlərinin qardaşlaşmasının 40 illiyinə həsr edilmiş tədbir keçirilmişdir. Tədbirdə dövlət rəsmiləri, elm, ədəbiyyat, mədəniyyət xadimləri, tanınmış idmançılar, iş adamları iştirak ediblər.

Qonaqları salamlayan Fransanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Zakari Qrosa Fransa-Azərbaycan əlaqələri, Bordo şəhəri, onun tarixi, bu günü barədə məlumat vermiş, Azərbaycanla Fransa arasındakı münasibətlərin, həmçinin Bakı ilə Bordo arasındakı əlaqələrin daha da inkişaf edəcəyinə əminliyini vurğulamışdır. O, Bakı və Bordonun çox işgüzar və cəlbedici şəhərlər olduğunu qeyd edib.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov deyib ki, Fransa və Azərbaycanı bağlayan amillər çoxdur. Hələ 1708-ci ildə Səfəvilər ilə Fransa arasında diplomatik və ticarət müqavilələri bağlanılıb. Qacarlar dövlətinin zamanında da sıx əməkdaşlıq var idi.

Bu gün Fransa-Azərbaycan əlaqələri inkişaf edir. 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin Fransaya rəsmi səfəri iki dövlət arasında əlaqələrin inkişafına təkan verdi. Prezident İlham Əliyev dəfələrlə Fransaya, Fransanın dövlət başçıları Azərbaycana səfərlər ediblər. Heydər Əliyev Fondu Fransa-Azərbaycan münasibətlərinin inkişafında önəmli işlər görüb. Mehriban xanım Əliyevanın səyləri nəticəsində Fransa Dövlət Şərq Dilləri və Mədəniyyətləri İnstitutunda (İNALCO) Azərbaycan dili fakültəsi açılıb. Azərbaycan və Fransa prezidentlərinin təşəbbüsü ilə Bakıda Azərbaycan-Fransa Universiteti yaradılıb.

Heydər Əliyev Fondu 2007-ci ildə Parisdə Versal Sarayının parkındakı abidələrin, 2008-ci ildə isə Luvr Muzeyinin bərpası işlərində iştirak etmişdir. Xalq diplomatiyası səviyyəsində də əlaqələr inkişaf edir. Azərbaycanlı turistlər Fransaya, fransız turistlər isə Azərbaycana səfər edirlər.

40 il keçməsinə baxmayaraq Bordo şəhəri ilə yaranmış əməkdaşlıq bu gün də sıx davam edir. Bu şəhərləri bir çox sahələr bir-birinə bağlayır. Hər iki şəhər liman şəhəridir və formalaşmış iqtisadi və sənaye mərkəzləridir. Hər iki şəhərin zəngin tarixi var. Bakı və Bordo arasında əlaqələri daha da genişləndirməsi və inkişaf etdirməsi istiqamətində işlər davam etdiriləcəkdir.

Sonra Bordo şəhərinin meri Nikolas Florenin təbrik məktubu oxunub. Tədbirdə Bordo şərablarının təqdimatı keçirilib.

***Elçin CƏFƏROV, "Azərbaycan"***




# Bakıda Ümummilli Lider Heydər Əliyevin anım gününə həsr edilmiş elmi-praktik konfrans keçiriləcək

Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin təşkilatçılığı ilə 14 dekabr 2019-cu il tarixdə Ümummilli Lider Heydər Əliyevin anım gününə həsr edilmiş "Anadangəlmə ürək-damar xəstəliklərinin müalicəsində müasir yanaşmalar" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçiriləcək.

Azərbaycan səhiyyəsinin inkişafında misilsiz xidmətlər göstərmiş və əhalimizin sağlamlığını daim diqqət mərkəzində saxlamış Ümummilli Lider Heydər Əliyev hesab edirdi ki, insanların sağlamlığı dövlətin və cəmiyyətin sağlamlığı deməkdir. Bu gün Ulu Öndərin siyasi kursunun ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsi digər sahələrdə olduğu kimi, səhiyyə sistemində də uğurlara vüsət verir. Həyata keçirilən genişmiqyaslı islahatlar əhalinin sağlamlığının qorunmasına, xalqımızın həyat səviyyəsinin yaxşılaşdırılmasına, orta ömür müddətinin uzanmasına xidmət edir. Sağlam əhali - ölkənin uğurlu inkişafının zəmini və gələcək nəsillər üçün möhkəm təməldir!

Ümumdünya Səhiyyə Təşkilatının məlumatlarına əsasən ürək-damar sisteminin xəstəlikləri, əvvəllər olduğu kimi, dünyanın bir çox ölkələrində ölümün başlıca səbəbidir, müalicəsi isə çətindir və böyük vəsait tələb edir. Sözügedən konfransda anadangəlmə ürək-damar xəstəliklərinin diaqnostikası, müasir müalicə üsulları və metodları, bu xəstəliklərin profilaktikasında müasir yanaşmalar müzakirə olunacaq. Konfransda yerli mütəxəssislərlə yanaşı, Türkiyə, Almaniya, İran və İtaliyanın nüfuzlu tibbi ekspertləri də iştirak edəcəklər.

Dörd paneldən ibarət olan konfransda "Anadangəlmə ürək qüsurları, genetika, skrininq və ümumi baxış", "Yenidoğulmuşlarda təcili vəziyyətlərdə nə etməli?", "Anadangəlmə ürək qüsurlarında xüsusi vəziyyətlər: vaksinasiya və reabilitasiya" və "Mitral və aortal qapaqların müalicəsində innovativ yeniliklər" mövzularında çıxışlar olacaq, maraqlı mühazirələr və interaktiv diskussiyalar aparılacaq.

Konfransın gedişində Azərbaycandan ürək cərrahı Rəşad Mahmudov "Minimal invaziv cərrahiyyə"; Türkiyənin Florence Nightingale Xəstəxanalar Qrupundan professor Yalım Yalçın "Anadangəlmə ürək qüsurlarının müalicəsində invaziv kardioloji metodların rolu" mövzusunda, uşaq kardiocərrahı professor Bülent Polat "Fallo tetradasının ümumi korreksiyasında 20 illik təcrübə" və pediatr-neonatoloq Ozan Uzunhan "Yenidoğulmuşlarda kritik anadangəlmə ürək xəstəliklərinin erkən diaqnozunda pulsoksimetriyanın rolu", İtaliyanın Boloniya Universitetinin Kardiologiya kafedrasının dosenti, kardioloq Franko Nakarella "Müasir uşaq kardiologiyasında klinik və genetik konsultasiyalar", Almaniyanın Yunq Ştillinq Klinikasının kardioloqu Yohannes Riks "Mitral və triksupidal qapaq çatışmazlıqlarında intervensiyon yenilikləri" və professor Gündüz Dursun "Aorta qapağı dəyişimində və koronar revaskulyarizasiyada olan yeniliklər", İranın Genetik Mühəndislik və Biotexnologiya üzrə Milli İnstitutunun həkim genetiki Saber Siamak "Ürək qüsurları və genetik xəstəliklər arasında əlaqə" və digər yüksək ixtisaslı mütəxəssislər müxtəlif mövzularda məruzələrlə çıxış edəcəklər.

Qeyd edək ki, Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsi tərəfindən mütəmadi olaraq təşkil olunan elmi-praktik konfransların keçirilməsinin əsas məqsədi yerli və beynəlxalq tibb ictimaiyyətinin mütəxəssislərini bir araya gətirməklə, ölkə səhiyyəsində yüksək texnologiyalar və innovasiyaların tətbiqi ilə bağlı nailiyyətlərin diqqətə çatdırılması və təcrübə mübadiləsinin aparılmasıdır.

***"Azərbaycan"***

# Ermənistan silahlı qüvvələrinin bölmələri snayper tüfənglərindən istifadə etməklə atəşkəs rejimini 23 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonunun Dovex kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qərvənd, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# Bratislavada Azərbaycanın və Ermənistanın Xarici İşlər nazirlərinin görüşü olacaq

Dekabrın 4-də Bratislava şəhərində keçiriləcək ATƏT-in Nazirlər görüşü çərçivəsində Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov və Ermənistan Xarici İşlər naziri Zöhrab Mnatsakanyan arasında ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə görüşün keçirilməsi nəzərdə tutulur.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

**3 dekabr Beynəlxalq Əlillər Günüdür**

# Sönməz həyat eşqi

## Fiziki məhdudiyyətli insanlara qayğı dövlətin sosial siyasətinin tərkib hissəsidir





...Gəlişiylə, gedişiylə, şirin-şirin gülüşüylə dünyanı qəmli nağıla bənzədənlər yalnız poeziya ilə nəfəs alan qələm və söz adamları deyil, həm də fiziki sağlamlığa möhtac, əlil arabasında yaşam uğrunda mübarizə aparanlar da bu fikirdədirlər.

Maraqlısı budur ki, onlar sağlam insanlardan daha çox həyata bağlı olurlar. Çalışırlar ki, cəmiyyətin bir parçası olduqlarını inandırsınlar, təsdiqləsinlər. Demək, onlar yalnız fiziki məhdudiyyətlidirlər. Həyat fəlsəfələri, duyğu və düşüncələri əlil arabasına ehtiyacı olmayanlardan heç də geri qalmayıblar.

Dünyaya göz açan hər kəs sabah onu nələr gözlədiyini heç zaman bilməyib. Buna görə də heç kim qəfil qəzalardan ala biləcəyi xəsarətlərdən sığortalanmayıb. Fiziki məhdudiyyətlilər isə sanki bunu daha dərindən dərk edirlər.

Onların sosial müdafiəsi dünyanı narahat edən məsələlərdəndir. Ona görə də BMT 3 dekabr tarixini Beynəlxalq Əlillər Günü elan edib. Aparılan sosial sorğuların nəticələrinə, beynəlxalq təşkilatların hesabatlarındakı rəqəmlərə görə dünya əhalisinin təxminən 10 faizi fiziki cəhətdən qüsurludur. Onların 20 faizi isə inkişaf etməkdə olan ölkələrin vətəndaşlarıdır.

Azərbaycana gəlincə, bu kateqoriyaya daxil olanların sosial rifahının yüksəldilməsi istiqamətində mühüm addımlar atılır, təminatları ödənilir, cəmiyyətə inteqrasiyaları üçün mühüm layihələr həyata keçirilir.

Xatırlatmaq yerinə düşər ki, BMT Baş Məclisi tərəfindən 2006-cı ildə qəbul edilən "Əlillərin hüquqları haqqında" Konvensiyaya qoşulan Azərbaycanda əlillərin sosial müdafiəsi ilə bağlı həyata keçirilən genişmiqyaslı tədbirlərin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. İnsan amilini xüsusi diqqətdə saxlayan görkəmli dövlət xadiminin Azərbaycana rəhbərliyinin hər iki dövründə əlillərin sosial müdafiəsi, onların reabilitasiya və cəmiyyətə inteqrasiyası ildən-ilə gücləndirilib. Ölkədə əlillərin sosial müdafiəsi ilə bağlı dövlət proqramı qəbul edilib. Bakıda və regionlarda əlillər üçün reabilitasiya mərkəzləri, protez-ortopedik müəssisələr yaradılıb. Ulu Öndər Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların ailələrinə, fiziki sağlamlığını itirənlərin problemlərinə böyük həssaslıqla yanaşıb. Əlillərin, şəhid ailələrinin, eləcə də müharibə veteranlarının mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində əhəmiyyətli tədbirlər görülüb.

Son illər ölkədə əlilliyi olan şəxslərlə bağlı bərpa-müalicə sisteminin maddi-texniki bazasının gücləndirilməsi və müasir tələblərə uyğun təkmilləşdirilməsi üçün məqsədyönlü layihələr həyata keçirilir.

Avropa İttifaqının "Əlilliyi olan şəxslər üçün tibbi-sosial reabilitasiya sisteminin inkişaf etdirilməsi istiqamətində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə dəstək" tvinninq layihəsi bu sahədə qabaqcıl təcrübənin öyrənilməsi ilə yanaşı, fəal ekspert dəstəyinin göstərilməsinə də yardımçı olub.

Ölkəmizdə əlilliyi olan şəxslərin etibarlı sosial müdafiəsinin təmin olunması Prezident İlham Əliyevin yürütdüyü siyasətin uğurlu sosial inkişaf kursunun mühüm komponentlərindən biridir. 2004-cü ildən sosial müavinətlərin, o cümlədən əlilliyə görə, sağlamlıq imkanları məhdud uşaqlara ödənilən sosial müavinətlərin 3-10 dəfəyədək artırılması da bunun bariz nümunəsidir. Eyni zamanda müharibə əlillərinə 2008-ci ildən ödənilən Prezident təqaüdlərinin məbləği 100 faizə kimi artırılıb.

Hələ ötən əsrin 90-cı illərində Ümummilli Lider Heydər Əliyevin diqqət və qayğısı nəticəsində əlilliyi olan şəxslərin istedad və bacarıqlarının dəstəklənməsi üçün respublika səviyyəli tədbirlərin həyata keçirilməsinə başlanılıb. Ulu Öndərin "Biz əlillər üçün, onların yaşaması, əmək fəaliyyətinə cəlb olunması, öz daxili imkanlarından, istedadlarından istifadə etmələri üçün daha da geniş şərait yaradacağıq" fikri dövlətimizin sosial siyasətinin mühüm prioritetlərindən biri kimi müəyyən olunub. Dövlət başçısı İlham Əliyevin yürütdüyü uğurlu sosial siyasət digər sahələrdə olduğu kimi, bu məsələnin həllində də mühüm əhəmiyyət daşıyır.

Dövlət qurumları və QHT-lər xüsusi layihələr əsasında istedadlı əlillərin cəmiyyətdə fəallıqlarını artırmağa çalışırlar. Bununla bağlı bir sıra tədbirlər təşkil edilir: onların müxtəlif sahələrdə qabiliyyətlərinin üzə çıxarılması üçün idman tədbirləri, yarışlar və müsabiqələr təşkil edilir.

Yeri gəlmişkən, 2018-ci ildə Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinə nəzərdə tutulduğundan 3 dəfə çox olmaqla, 626 mənzil təqdim edilib. 2019-cu ildə isə şəhid ailələrinə, ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan vətəndaşlara 934 mənzil verilməsi nəzərdə tutulub. Onlardan artıq 486 mənzil və fərdi ev öz sahiblərinə təhvil verilib. Qalan mənzil və fərdi evlər də ilin sonuna qədər veriləcək.

Bununla da indiyə kimi adıçəkilən nazirlik tərəfindən şəhid ailələrinə və müharibə əlillərinə 7140 mənzil və fərdi ev verilib. Xatırladaq ki, ötən il 265 müharibə əlilinə nazirlik tərəfindən minik avtomobili verilib ki, bu da cari ildə nəzərdə tutulduğundan 3,2 dəfə çoxdur. Ümumiyyətlə, bu kateqoriyaya aid olan ölkə vətəndaşlarına indiyədək müharibə əlilləri və onlara bərabər tutulan vətəndaşlara 6400-dək minik avtomobili verilib. Bununla yanaşı, reallaşdırılan sosial paketlərin tərkib hissəsi kimi, şəhid ailələrinə, müharibə əlillərinə yönələn ödənişlər də əhəmiyyətli dərəcədə artırılıb.

Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Fondunun yardımı ilə "Arabaçı" Əlillər Şəbəkəsi İctimai Birliyinin təşkil etdiyi tədbirlər də bu mənada yaddaqalan olur. Dənizkənarı Milli Parkda təşkil olunan tədbirlərin biri fiziki məhdudiyyətlilərin reabilitasiya və cəmiyyətə inteqrasiya layihəsi çərçivəsində keçirilib. İctimai birliyin sədri İlham Məhərrəmov sağlamlıq imkanı məhdud olanların özünə qapanmaması, cəmiyyətə inteqrasiyası məqsədilə belə bir təşkilata ehtiyac olduğunu bildirib. O əlavə edib ki, ölkəmizdə 500 min nəfərdən çox fiziki məhdudiyyətlilər var. "Arabaçı" onların bir hissəsini paralimpiya idman növü olan boççia ilə məşğul olmağa həvəsləndirib.

Son illər əlil idmançılar arasında boççia idman növünün yayılması sahəsində xeyli iş görülüb. Bu idman növü nəinki paytaxtda, hətta bölgələrdə də özünə xeyli tərəfdar tapıb.

Ümumiyyətlə, əlillərin sağlam həyata qaytarılması yalnız ailənin, hər hansı dövlət və ya qeyri-hökumət təşkilatlarının fəaliyyəti ilə məhdudlaşmamalıdır. Bu problemin həllində geniş ictimaiyyət iştirak etməli, onlara qayğı hər kəsin mənəvi borcuna çevrilməlidir. Axı, onların da dünyaya gələn hər kəs kimi, yaşama haqqı var. Fiziki hərəkəti mədud insanlar, xüsusən də belə bəlaya düçar olmuş uşaqlar da özlərini (istedad və qabiliyyətləri ilə) cəmiyyətin sağlam ruhlu üzvləri kimi hiss etməlidirlər. Çünki öz dünyası, öz aləmi olan bu insanları yaşadan bir özgə həyat eşqidir...

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

# Ana və uşaq sağlamlığı yönündə vacib layihə

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (İTSDA) və Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondunun (UNICEF) birgə təşkilatçılığı ilə "Ana və Uşaq Sağlamlığı üzrə SMS maarifləndirmə" pilot layihəsinin nəticələrinin təqdimat mərasimi keçirilib.

İTSDA-dan verilən məlumata görə, tədbirdə UNİCEF-in və adıçəkilən agentliyin nümayəndələri, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (NRYTN) məsul əməkdaşları, Mingəçevir şəhər Mərkəzi Xəstəxanasının, aidiyyəti dövlət, qeyri-dövlət qurumlarının və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etmişlər.

Tədbiri açan UNİCEF-in Azərbaycandakı nümayəndəliyinin rəhbəri Edvard Karvardin demişdir ki, informasiya-kommunikasiya texnologiyalarının gündən-günə inkişaf etdiyi bir dünyada yeniliklərə doğru irəliləmək çox vacibdir: "Yeni yanaşmalardan istifadə edərək xidmətlərə çıxışı artırmaq, zəruri məlumatları çatdırmaq öndə duran məsələlərdən biridir. Bu səbəbdən sağlamlıq haqqında vacib məlumatları hamilə qadınlara çatdırmaq üçün bir araya gələn İTSDA, NRYTN və mobil operatorların tərəfdaşlığına çox şadıq".

İTSA idarə heyətinin sədri Zaur Əliyev isə ölkəmizdə ana və uşaqların sağlamlığının qorunması sahəsində aparılan islahatlardan söz açaraq uşaq sağlamlığının qorunmasının agentliyin diqqətində olan mühüm məsələlərdən biri olduğunu vurğulamışdır. O, həmçinin SMS maarifləndirmə üzrə pilot layihənin qadınların bilik, vərdiş və davranışlarında müsbət dəyişikliklərə, tibb işçiləri ilə qarşılıqlı əlaqələrin möhkəmlənməsinə səbəb olduğunu bildirmişdir.

Sonra SMS ismarıc paketini almış hamilə qadınların, icraçıların layihə ilə bağlı təəssüratlarından bəhs edən videofilm nümayiş etdirilmiş, layihənin ilkin mərhələsinin nəticələri təqdim olunmuşdur.

İştirakçılara bildirilmişdir ki, SMS ismarıcın maarifləndirmə vasitəsi kimi təsir gücünün sınanması da layihənin hədəflərindən biridir. Bu məqsədlə ismarıc paketini almış hamilə qadınların bilik və vərdişlərində yaranmış dəyişiklikləri müəyyən etmək üçün oktyabr-noyabr aylarında 273 abunəçi arasında telefon sorğusu keçirilmişdir. Sorğular nəticəsində məlum olmuşdur ki, 62 faiz sorğuçu ona göndərilən SMS-lərdən ən azı birini xatırlayır.

Tədbirin sonunda gələn ildən icbari tibbi sığortanın tətbiq olunacağı regionlarda da gələn ilin aprel ayınadək davam edəcək layihənin həyata keçirilməsi və bununla bağlı aparıcı mobil operatorlar ilə əməkdaşlıq əlaqələrinin davam etdirilməsi müzakirə olunmuşdur.

***"Azərbaycan"***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu fondun Sabirabad rayon şöbəsinin inzibati binasının birinci mərtəbəsinin cari təmir işlərinin satın alınması üzrə keçirilən

### *təkliflər sorğusuna dəvət edir*

Maraqlanan təşkilatlar (012) 530-29-03 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

**İştirak haqqı:** 200 (iki yüz) manat
**Satınalan təşkilat:** Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu

**VÖEN:** (DSMF)1300050781
**Bank:** Dövlət Xəzinədarlığı Agentliyi
**H/h:** AZ46CTRE00000000000007018504
**M/h:** AZ41NABZ01360100000000003944
**VÖEN:** 1401555071
**Kod:** 210005
**SWIFT:** CTREAZ22

**Büdcə gəlirlərinin təsnifat kodu:** -142319
**Büdcə səviyyəsinin kodu:** - 4
**İstirak haqqı heç bir halda geri qaytarılmır.**

Müqaviləni yerinə yetirmək üçün təkliflər sorğusu üzrə iştirakçılar lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Təkliflər sorğusu proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 06 dekabr 2019-cu il saat 15:00-dək qəbul olunur.

İddiaçıların təklifləri 09 dekabr 2019-cu il saat 10:00-da Bakı şəhəri, H.Zərdabi, 80 ünvanında açılacaqdır.

*Tender komissiyası*

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin tabeliyində olan

LOT 1 - Xüsusi Qayğıya Ehtiyacı olan Uşaqların Dövlət Reabilitasiya Müəssisəsinin cari təmir işlərinin;
LOT 2 - Uşaq Bərpa Mərkəzinin cari təmir işlərinin;
LOT 3 - Respublika Əlillərin Bərpa Mərkəzinin cari təmir işlərinin satın alınması üçün keçirilən təkliflər sorğusuna dəvət edir.

Maraqlanan təşkilatlar (012) 596-88-73 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.

**İştirak haqqı: hər LOT üzrə 100 (bir yüz) manat**

**Satınalan təşkilat: Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti**
**VÖEN:** 1003853391
**H/h:** AZ41CTRE00000000000002947601
**Dövlət Xəzinədarlığı Agentliyi**
**VÖEN:** 1401555071
**M/h:** AZ41NABZ01360100000000003944
**SWIFT:** CTREAZ22

**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**
**Büdcə səviyyəsinin kodu - 7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Prosedur "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 09 dekabr 2019-cu il saat 18:00-dək qəbul olunur.

İddiaçıların təklifləri 10 dekabr 2019-cu il saat 10:00-da AZ1110, Bakı şəhəri, Binəqədi rayonu 6-cı mkr, Mirmahmud Kazımovski küçəsi 134 ünvanında açılacaqdır.

*Tender komissiyası*

## "Bakı Kristal Zalı" MMC

## "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq "Bakı Kristal Zalı" MMC-nin led lampa və havalandırma sisteminin filterlərinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə əldə edə bilərlər.

**Tender 1 LOT üzrə keçirilir:**
**LOT 1: Xarici membranın led lampaları və havalandırma sisteminin xüsusi filterlərinin satın alınması**
**İştirak haqqı: 600 manat**
**Təkliflər Azərbaycan dilində tərtib olunmalıdır və Portala 11 dekabr 2019-cu il saat 10:00-a qədər yerləşdirilməlidir.**
**Zərflərin açılma tarixi: 12 dekabr saat 11:00.**
**Ünvan: Bakı şəhəri, Səbail rayonu, Bayıl massivi, Dövlət Bayrağı Meydanı.**
**Ətraflı məlumat almaq üçün əlaqələndirici şəxs Teymur Hüseynova müraciət etmək olar.**
**Telefon: (012) 404-31-52 (daxili 210)**
**e-mail: info@crystalhall.az**

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 05 oktyabr 2019-cu il tarixli nömrəsində Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) tərəfindən malların, işlərin və xidmətlərin satın alınması məqsədilə dərc edilmiş elan üzrə keçirilən 4 LOT-dan ibarət təkliflər sorğusunun nəticələrinə əsasən LOT 2. Sutəmizləyici qurğulara texniki xidmətin (sərfiyyat malları və onların dəyişdirilməsi daxil olmaqla) satın alınmasında **"CLIMASERVICE BAKU" Məhdud Məsuliyyətli Cəmiyyəti,** LOT 3. Bayraqlara və bayraq dirəklərinə texniki xidmətin satın alınmasında **"Azərbayraq" Məhdud Məsuliyyətli Cəmiyyəti,** LOT 4: İnformasiya texnologiyaları sistemlərinə (saxlanc avadanlıqları, müraciətlərin balanslaşdırılma sistemi, professional iclas avadanlıqları, İP telefoniya, virtual platforma, elektron məktub, İT təhlükəsizlik sistemləri və s.) texniki xidmətin satın alınmasında isə **"R.İ.S.K. Elmi İstehsalat Şirkəti" Qapalı Səhmdar Cəmiyyəti** qalib olmuşdur.

Qalib şirkətlərlə hər bir LOT üzrə ayrıca müvafiq satınalma müqavilələri imzalanmışdır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Mənzil-Kommunal və Təmir Xidməti tərəfindən bir ədəd su daşınması üçün xüsusi təyinatlı nəqliyyat vasitəsinin satın alınması ilə bağlı 25 oktyabr 2019-cu il tarixdə dövlət satınalmalarının vahid internet Portalında və 27 oktyabr 2019-cu il tarixdə "Azərbaycan" qəzetində elan olunmuş açıq tender prosedurunun "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun 11.1-ci maddəsinə əsasən davamından imtina edilir.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

26 noyabr 2019-cu il tarixdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Bakı şəhəri, Xəzər rayonunda yeni açılacaq DOST mərkəzinin elektrik təchizatını fasiləsiz təmin etmək məqsədilə generatorun dövlət vəsaiti hesabına satın alınması üçün keçirilən Təkliflər sorğusunda "Abşeron Makina" MMC qalib olmuş və satınalma müqaviləsi bağlanmışdır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

17 yanvar 2020-ci il saat 11:00-da "Bakı Sığorta" ASC-nin Yasamal rayonu, A.M.Şərifzadə küçəsi, 315C ünvanında yerləşən inzibati binasında cəmiyyətin səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir.

İclasın gündəliyi, əlavə məlumat, o cümlədən səhmdarların ümumi yığıncağının gündəliyi üzrə materiallarla tanış olmaq üçün "Bakı Sığorta" ASC-yə (Bakı şəh., Yasamal rayonu, A.M.Şərifzadə küçəsi, 315C ünvanı), həmçinin 969 telefon nömrəsi vasitəsilə müraciət edilə bilər.

*İdarə Heyəti*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binalarında fasadların təmizlənməsinə dair xidmətlərin satın alınması və Azərbaycan Respublikasının Mərkəzi Bankında dizayner studiyası üçün fotoaparatın və onun linzasının satın alınması ilə bağlı kotirovka sorğularına dair Satınalmalar komissiyasının qərarına əsasən, 1-ci məsələ üzrə "Təmizkom" MMC, 2-ci məsələ üzrə isə fərdi sahibkar Məmmədov İkram Fikrət oğlu qalib elan edilmişdir.

Qaliblərlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Satınalmalar komissiyası*

## "Bakı Kristal Zalı" MMC

## "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq "Bakı Kristal Zalı" MMC-nin 2020-ci ilin tələbatı üçün İT xidmətlərinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə əldə edə bilərlər.

**Tender 1 LOT üzrə keçirilir:**
**LOT 1: İT infrastrukturunun, scada sisteminin, bms sistemlərinin qurulması, tətbiqi və idarə edilməsi, həmçinin mövcud protokollar və sistemlərə dair proqram təminatının və interfeysin yaradılması və tətbiqi işlərinin satın alınması**

**İştirak haqqı: 600 manat**
**Təkliflər Azərbaycan dilində tərtib olunmalıdır və Portala 11 dekabr 2019-cu il saat 17:00-a qədər qəbul olunur.**
**Zərflərin açılma tarixi: 12 dekabr saat 17:00.**
**Ünvan: Bakı şəhəri, Səbail rayonu, Bayıl massivi, Dövlət Bayrağı Meydanı.**
**Ətraflı məlumat almaq üçün əlaqələndirici şəxs Teymur Hüseynova müraciət etmək olar.**
**Telefon: (012) 404-31-52 (daxili 210)**
**e-mail: info@crystalhall.az**

*Tender komissiyası*

«AZƏRBAYCAN»
qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Gəncə İnzibati-İqtisadi Məhkəməsinin hakimi

**SVETLANA İSMAYILOVANIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin rəhbərliyi və kollektivi Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Ramiz Mehdiyevə əzizi

**VAQİF NƏSİROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Gəncə İnzibati-İqtisadi Məhkəməsinin kollektivi məhkəmənin sabiq hakimi

**SVETLANA İSMAYILOVANIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8906
Sifariş 4051
Qiyməti 40 qəpik